RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 277 (9732) 15 dekabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Sülh olacaq, güzəşt olmayacaq



Cənubi Qafqazda daimi sülhün yaranacağını görən bəzi Qərb dairələri bundan ciddi narahat olmaqla yanaşı, köhnə ssenarilərini işə salmağa başladılar. Ermənistanın havadarları, demək olar ki, danışıqlara əngəl yaratmaqla sülh sazişinin imzalanmaması üçün müxtəlif yollara əl atdılar. İlk olaraq Ermənistanı yenidən silahlandırıb revanşizm meyillərini yenidən oyatmaq istədilər. Fransa və Hindistanın verdiyi pulsuz silahlar, Yunanıstanın "S 300" raket komplekslərini Ermənistana vermək niyyəti, adını "sülh fondu" qoyub Hayastana silah-sursat, hərbi texnikaların alınması üçün milyonlarla dollar ayıran Avropa İttifaqının "Avropa Sülh Fondu" İrəvanı yenidən revanşist fikirlərə saldı.

Bir tərəfdən Fransa, digər tərəfdən Aİ-nin Ermənistanı silahlandırması bu qüvvələrin, əslində, Qafqazda yeni münaqişə ocağının yaranmasında maraqlı olduqlarını bir daha göstərdi. Bundan istifadə edən keçmiş hərbi xunta ölkəni müharibəyə sürükləməyə çalışdı. Elə rəsmi İrəvanın da sülh müqaviləsini imzalamamaq üçün müxtəlif bəhanələrə əl atması baş nazir Nikol Paşinyanın ikibaşlı oyun oynadığını göstərdi.

Lakin Bakı sülhdə maraqlı olmaqla yanaşı, prosesin qalıcı olmasına xüsusi diqqət yetirir. Ermənistanın mövcud Konstitusiyası da yekun sülhün önündə başlıca maneədir. Konstitusiyanın bəzi maddələrində başda Azərbaycan olmaqla ətraf ölkələrə qarşı ərazi iddiaları əks olunub. Bakı gələcəkdə Ermənistanın hüquqi bəhanələrlə sülh müqaviləsini pozmasını, üzərinə götürdüyü öhdəliklərdən yayınmasını istəmir.

Aparılan son danışıqlarla bağlı məlumat verən xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, bu il Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində müsbət irəliləyişlər olub. Buna misal kimi bu ilin aprelində ilk dəfə olaraq iki ölkə arasında dövlət sərhədinin müəyyən hissəsinin delimitasiyasının və demarkasiyasının həyata keçirilməsini qeyd etmək olar. Nazir bildirib ki, Ermənistanla sülh müqaviləsi üzrə fiziki görüşlər həyata keçirilib. Həmçinin mətn üzrə mübadilələr davam etdirilib. Açıq sualların olmasına baxmayaraq, sülh müqaviləsi prosesində bəlli irəliləyişlər də əldə edilib.

Sülh müqaviləsi ilə bağlı layihə preambula və 17 maddədən ibarətdir. Preambula və 15 maddə üzrə mətnlər tam razılaşdırılıb, iki maddə üzrə isə açıq suallar var. Həmin açıq suallar üzrə işlər davam edir. Artıq bir neçə raund danışıqlar və mətn mübadilələri həyata keçirilib. Hələ ki, tam razılaşdırılmış varianta gəlmək mümkün olmayıb.

Nazir qeyd edib ki, bundan əlavə, çox önəmli digər məsələ Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının mövcudluğu ilə əlaqədardır: "Bununla bağlı Ermənistandan qətiyyətli addımlar gözləyirik. Son zamanlar Ermənistan tərəfindən eşitdiyimiz arqumentlər bizi qane edə bilməz. Onu da qeyd etmək istərdim ki, Ermənistanın Konstitusiya Məhkəməsinin növbəti qərarı oldu. Belə ki, Konstitusiya Məhkəməsi Ermənistan Konstitusiyasının preambulasının dəyişməz olduğu və xüsusi olaraq preambulaya toxunmağın mümkün olmaması barədə qərar qəbul edib. Hesab edirik ki, bu, vəziyyəti daha da mürəkkəbləşdirir. Çünki məhz Ermənistanın Konstitusiyasının preambulasında Ermənistanın Müstəqillik Bəyannaməsinə istinad var. Həmin Müstəqillik Bəyannaməsində də Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar yer alır", - deyə nazir əlavə edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev isə Ermənistanın silahlandırılması məsələsinə toxunaraq vurğulayıb ki, məğlub ölkənin silahlandırılması məsuliyyətli parametrlər çərçivəsində olmalıdır. Onun sözlərinə görə, Ermənistanın militarizasiya proqramı həyata keçirilir. Bunun arxasında duran əsas qüvvələrdən biri Avropa İttifaqının və NATO-nun üzv ölkəsi olan Fransadır. Təəssüf ki, Fransa özünün beynəlxalq öhdəliklərinə rəğmən Ermənistanın silahlandırılması ilə bağlı proqramda iştirak edir.

→ 3

## Azərbaycan Prezidenti Gürcüstanın yeni seçilmiş Prezidentini təbrik etdi

### Gürcüstanın yeni seçilmiş Prezidenti zati-aliləri cənab Mixeil Kavelaşviliyə

Hörmətli cənab Kavelaşvili!

Gürcüstanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan-Gürcüstan əlaqələri tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış, bir-birinə daim dəstək olmuş xalqlarımızın iradəsindən qaynaqlanır. Belə möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərimizin bu gün hərtərəfli və müvəffəqiyyətlə inkişaf etməsi bizi sevindirir.

İnanıram ki, ölkələrimizin və xalqlarımızın rifahı, regionumuzun sabitliyi və təhlükəsizliyinin təmin olunması, iqtisadi potensialının reallaşdırılması naminə dövlətlərarası əlaqələrimizin və strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının firavanlığı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2024-cü il*

## Hədəfimiz daha güclü Azərbaycan yaratmaqdır

Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrliyinin də ölkəmizin qlobal nüfuzunun yüksəlməsində çox əhəmiyyətli rolu oldu. Ölkəmiz Qoşulmama Hərəkatına dünyamız üçün çox mürəkkəb bir dövrdə rəhbərlik etdi. Bu dövr həm qlobal pandemiya, həm də yeni geosiyasi gərginliklərlə yadda qaldı. Belə çətin və mürəkkəb şəraitdə dövlətimiz hərəkatın əsas prinsiplərini qorumaqla bərabər, onu daha fəal və təsirli bir beynəlxalq platformaya çevirməyə müvəffəq oldu. Azərbaycan pandemiya dövründə bu qlobal bəlaya qarşı beynəlxalq həmrəyliyi gücləndirmək üçün bir sıra təşəbbüslər irəli sürərək onların icrasına nail oldu. Belə ki, 2020-ci ildə Qoşulmama Hərəkatı ölkələrinin dövlət və hökumət başçılarının COVID-19 ilə mübarizəyə həsr olunmuş Zirvə görüşünü təşkil etdi. BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsünü irəli sürdü. Bu sessiya pandemiya ilə mübarizə üzrə qlobal səylərin koordinasiyasına mühüm töhfə verdi.




Azərbaycan 80-dən çox ölkəyə, xüsusilə inkişaf etməkdə olan dövlətlərə tibbi və humanitar yardım göstərərək dünyada örnək yaratdı. Peyvəndlərə ədalətli çıxışın təmin edilməsi üçün beynəlxalq təşəbbüslər irəli sürdü və dünya ictimaiyyətini bu təşəbbüslər ətrafında bir araya gətirməyi bacardı.

Ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi dövründə qurumun əsas prinsiplərini, o cümlədən dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq hüququnu uğurla müdafiə etdi. Təsadüfi deyil ki, Azərbaycan ərazi bütövlüyünü, dövlət suverenliyini bərpa edərkən Hərəkata üzv ölkələr ərazi bütövlüyümüzü yekdilliklə dəstəklədilər. Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi Hərəkat çərçivəsində daha geniş dəstək qazandı.

→ 3

## Qərbin çirkin planları iflasa məhkumdur



Ermənistanın bu riyakar siyasətinin arxasında Avropa Parlamenti, AŞPA kimi beynəlxalq təşkilatlar və Fransa dayanır. Bu təşkilatların və bəzi ölkələrin niyyəti Cənubi Qafqaz regionunda sülhün, əmin-amanlığın pozulmasıdır. Onların məqsədi Cənubi Qafqaz ölkələrində qarşıdurma yaratmaq, dövlətləri bir-birinə qarşı qoymaqdır. Bugünkü Ermənistan tamamilə Qərbin nəzarətində olan, onların əmrlərinə tabe olan bir ölkəyə çevrilib. Kollektiv Qərb Gürcüstanda da xalqın milli maraqlarını qoruyan, gürcü xalqını tərəqqi və inkişafa aparmaq istəyən hazırkı hökuməti devirməyə, özlərinə qulluq edən birini hakimiyyətə gətirməyə çalışır. Əminəm ki, gürcü xalqı Qərbin bu fitnəkarlığına uymayacaq və müstəqil, demokratik siyasətə sadiq olacaq. Fransa və onun yanında olan bəzi Qərb dövlətləri Azərbaycanda da öz çirkin siyasətlərini həyata keçirməyə, dağıdıcı müxalifət və pulla ələ alınmış bəzi QHT-lər vasitəsilə bu niyyətlərini reallaşdırmağa çalışırlar.

→ 4

## Əsəd rejiminin devrilməsi ilə Ermənistan strateji müttəfiqini itirdi

2024-cü ilin iyul ayında Suriyada keçirilən parlament seçkiləri ölkənin bir sıra əyalətlərində nümayişlər və narazılıqlar fonunda baş tutub. Bu seçkilər həm də Suriya iqtisadiyyatının yüksək inflyasiya səviyyəsi və Qərbin sanksiyaları fonunda pisləşməyə doğru davam etdiyi, münaqişənin siyasi həlli ilə bağlı Birləşmiş Millətlər Təşkilatının rəhbərlik etdiyi prosesin dayandırıldığı bir vaxta təsadüf edirdi. Rejimin devrilməsindən dörd ay əvvəl keçirilən bu seçkilər xalq tərəfindən etimadla qarşılanmırdı. Çünki Suriya xalqı burada əsas məqsədin seçkilər əsasında formalaşacaq yeni parlamentin Bəşər Əsədin səlahiyyət müddətini uzatmasına imkan verəcək Konstitusiya dəyişikliyini qəbul etməsi olduğunu anlayırdı. Seçkilərin ölkənin siyasi, iqtisadi, sosial həyatında və digər sahələrdə baş verən çətinliklərin həllinə töhfə verəcəyinə ümid bəslənsə da, hər hansısa ciddi dəyişikliyə səbəb olacağı gözlənilmirdi. Məhz dörd ay sonra, cəmi on gün ərzində müxalif qruplar Əsəd rejimini devirdilər. Rejimin sürətlə süqut etməsi həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük təəccüblə qarşılandı. Əsas narahatlıq isə Suriya hökumətinə müttəfiq ölkələr arasında müşahidə olundu. Bu sırada Ermənistanı xüsusi qeyd edə bilərik.

→ 4

## Azərbaycan Fransanın neokolonializm siyasətini ifşa edir

### Müstəmləkə altında olan ölkələrin nümayəndələri Bakı Təşəbbüs Qrupu ətrafında birləşərək azadlıq səslərini dünyaya çatdırırlar

Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitinin keçirilməsi isə müstəsna əhəmiyyətə malik oldu. Sözügedən sammitdə çıxışında "...Mən beynəlxalq gündəlikdə mühüm məsələlərdən birini də qaldırmaq istəyirəm - neokolonializm və iqlim dəyişmələri. Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz



qalanlar sırasındadır" deyən Prezident İlham Əliyev vurğuladı ki, artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox halda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Ancaq kolonializm siyasətini günümüzdə də davam etdirən Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır. Guya özünü dünyada "ədalət"in, "insan haqları"nın qoruyucusu kimi aparmağa çalışır. Lakin Fransanın təkcə yaxın zamanlarda dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısına baxanda, Makron rejiminin insan hüquqlarını necə pozduğunu görmək olur. Fransa dövləti Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoyub, 169 nəfər yaralanıb, 1700 insan həbs edilib. Həmçinin bu il Martinik və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub.

→ 4

# Heydər Əliyev Fondunun dəstəyi ilə Ruanda məktəbi içməli su ilə təchiz olunub










**Heydər Əliyev Fondu əksər Afrika ölkələri üçün birnömrəli problem olan içməli su ilə təchizat məsələsinə öz töhfəsini verib. Belə ki, fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində Ruandanın şərq əyalətinin administrativ mərkəzi Rvamaqana şəhər məktəbi içməli su ilə təchiz edilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ruandaya səfəri zamanı Rvamaqana şəhər məktəbində olub.

Qeyd olunub ki, məktəb binasının yerləşdiyi ərazidə Heydər Əliyev Fondunun dəstəyi ilə su quyusu qazılaraq saatda 3 tona yaxın içməli suyun verilməsi təmin edilib. Bundan əvvəl sakinlər tələbatlarını təmin etmək üçün yağış suyundan asılı vəziyyətdə olublar.

Məktəblə tanışlıq zamanı şagirdlər Azərbaycan haqqında daha geniş məlumat əldə edib, ölkəmizin ənənəvi təamlarından dadıblar.

# Leyla Əliyeva Ruandada reallaşdırılacaq layihələr üzrə görüşlər keçirib






**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ruandanın paytaxtı Kiqali şəhərində bu ölkənin xarici işlər üzrə daimi katibi Klementine Mukeka ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Heydər Əliyev Fondunun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi üzrə həyata keçiriləcək tədbirlər, ikitərəfli əməkdaşlıq müzakirə edilib. Vurğulanıb ki, Heydər Əliyev Fondu ilə Afrika ölkələri arasında gələcək faydalı əməkdaşlıq münasibətlərin inkişafına öz töhfəsini verəcək.

Leyla Əliyeva həmçinin Ruandanın gənclər və incəsənət naziri Sandrine Umutoni ilə görüşüb. Azərbaycan ilə Ruanda arasında mədəni əlaqələrə dair, təhsil sahəsində, eləcə də gənclərin mübadilə proqramı çərçivəsində müzakirələr aparılıb, bu istiqamətdəki layihələrin xalqlar arasında münasibətlərə müsbət təsiri qeyd edilib. Müxtəlif mövzulara dair sərgilərin təşkili kimi tədbirlərin xalqlarımızın bir-birini daha yaxından tanımalarına imkan yaradacağı bildirilib.

# MSK müşahidəçilər üçün yaddaş kitabçası hazırlayıb

**2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində müxtəlif statuslu seçki iştirakçıları üçün fərqli istiqamətlər üzrə layihələr davam etdirilir.**

MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, Mərkəzi Seçki Komissiyası genişmiqyaslı proqramına uyğun olaraq, Azərbaycan və ingilis dillərində "Müşahidəçilər üçün yaddaş" kitabçası hazırlayıb.

Layihənin həyata keçirilməsində başlıca məqsəd bələdiyyə seçkilərini izləyəcək müşahidəçiləri məlumatlandırmaq, onlara metodiki köməklik göstərmək və sərbəst fəaliyyətlərini daha da təkmilləşdirməkdən ibarətdir.




Nəşrdə Seçki Məcəlləsinin əsas aidiyyəti müddəa və anlayışlarının izahı verilib, müşahidə aparılmasına dair qanunvericiliklə müəyyənləşdirilmiş prinsiplər əks olunub, eyni zamanda müşahidəçilərin hüquq və vəzifələri aydın şəkildə göstərilib.

Yaddaş kitabçası Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi müvafiq normativ xarakterli aktlar əsasında tərtib olunub.

"Müşahidəçilər üçün yaddaş" kitabçasını aşağı seçki komissiyalarından, eləcə də Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsindən (**www.msk.gov.az**) əldə etmək olar.

# Bakıda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdisetmə mərasimi olub

**Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallager Azərbaycanda səfərdədir.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində dekabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Heydər Əliyev Fondunun dəstəyi və Bakı Şəhər İcra Hakimiyyətinin sifarişi ilə Müqəddəs II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin arxiyepiskop Paul Riçard Qallager tərəfindən təqdisetmə mərasimi keçirilib.

Mərasimdə Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi, Milli Məclisin deputatı Soltan Məmmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Müqəddəs Taxt-Tacın Azərbaycan Respublikasındakı Apostol nunsisi Marek Solçinski, Azərbaycanın Müqəddəs Taxt-Tacda fövqəladə və səlahiyyətli səfiri İlqar Muxtarov və digər rəsmi şəxslər iştirak ediblər.






Arxiyepiskop Paul Riçard Qallager kilsənin layihəsi ilə tanış olub.

Xatırladaq ki, kilsənin tikintisi məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən paytaxtın Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi, giriş 722 ünvanında yerləşən 0,17 hektar torpaq sahəsinin Azərbaycan Respublikasındakı Katolik Kilsəsinin istifadəsinə verilməsi haqqında 2024-cü il 1 may tarixli sərəncam qəbul edilib.

# Bakıda II İoann Pavelin şərəfinə tikiləcək yeni kilsənin yerləşəcəyi ərazinin təqdis olunması münasibətilə qəbul keçirilib

**Azərbaycanda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallager tərəfindən təqdis edilməsi münasibətilə dekabrın 14-də Bakıda qəbul keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev bildirib ki, dostluq və sıx əməkdaşlığa əsaslanan Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələri müsbət məcrada inkişaf edir. O, 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin və 2005-ci ildən etibarən Prezident İlham Əliyevin Vatikana, 2002-ci ildə Roma Papası II İoann Pavelin, 2016-cı ildə isə Roma Papası Fransiskin Azərbaycana səfərlərini xatırladıb, bu səfərlərin iki ölkə arasındakı əlaqələrin indiki səviyyəyə yüksəlməsinə böyük təkan verdiyini vurğulayıb.

"Biz mədəniyyətlərarası və dinlərarası dialoq dəyərlərinin qorunması istiqamətində fəal, səmərəli əməkdaşlığımıza xüsusi əhəmiyyət veririk. Azərbaycanda müxtəlif dinlərə və inanclara malik insanlar əsrlər boyu mehriban, qarşılıqlı hörmət şəraitində yaşayıblar. Heydər Əliyev Fondunun Vatikanın tarixi yerlərinin bərpasında iştirakı əməkdaşlığımızı daha da inkişaf etdirir və qlobal mədəni irsin qorunub saxlanmasına, mədəniyyətlərarası dialoqun inkişafına töhfə verir", - deyə nazir müavini bildirib.




Sonra çıxış edən Paul Riçard Qallager Bakıda katolik kilsəsinin tikintisi üçün ərazi ayırdığına görə Azərbaycan Prezidenti İlham Əliyevə, həmçinin Heydər Əliyev Fonduna dərin minnətdarlığını bildirib.

"Mən həmçinin Bakının mərkəzində bu kilsənin tikintisi mümkün olduğu üçün xeyirxah insanlara təşəkkür edirəm. 2002-ci ildə bu gözəl ölkəyə səfər edən Papa II İoann Pavelin şərəfinə tikiləcək kilsə Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında möhkəm dostluğun əbədi rəmzi olacaq", - deyə o vurğulayıb.

Tədbirin həm də Azərbaycanın zəngin dini və mədəni müxtəlifliyini ifadə etdiyini bildirən Paul Qallager deyib: "Məmnunuq ki, dərin multikulturalizm ənənələrinə sadiq ölkə kimi Azərbaycan bütün dinlərlə, o cümlədən Katolik Kilsəsi ilə dialoqa açıqdır. Müqəddəs Taxt-Tac Azərbaycanla əlaqələrin və xüsusilə ədalət və sülh kimi mənəvi dəyərlərin təbliğində əməkdaşlığın bundan sonra da möhkəmləndirilməsinə sadiqdir".



# Hədəfimiz daha güclü Azərbaycan yaratmaqdır

**Bu gün həyatımızda baş verənlər, görülən işlər, gerçəkliklər göz önündədir. Çunki yaşadığımız dövr, zəmanə reallıqlar dünyasıdır. Prezident İlham Əliyevin ötən onilliklərdə həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqazın əsas inkişaf mərkəzinə çevirdi. Hazırda ölkəmiz regionun iqtisadi-siyasi mənzərəsini müəyyənləşdirən qlobal layihələrin həm təşəbbüskarı, həm də icraçısıdır. Bu layihələr bizə sülh, davamlı inkişaf, vətəndaşlara rifah gətirir.**

Ölkəmizdə COP29 kimi mötəbər tədbir öz işini yüksək səviyyədə başa vurdu. Tədbirin yekununda bəşəriyyətin gələcəyi naminə verilmiş tarixi qərarlar dövlətimizin beynəlxalq aləmdəki nüfuzunu bir daha nümayiş etdirdi. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsi oldu. Azərbaycan dünya tarixinin ən möhtəşəm tədbirlərindən birinin sədri kimi üzərinə götürdüyü mühüm vəzifələrin öhdəsindən gələ bildi, Qlobal Şimalla Qlobal Cənub arasında ortaq nöqtələrin bir araya gətirilməsi, əvvəllər mümkün olmayan qərarların razılaşdırılması sahəsində nailiyyətlər əldə etdi. 2035-ci ilə qədər iqlim dəyişikliyindən ziyan çəkən inkişaf etməkdə olan ölkələrə hər il 300 milyard ABŞ dolları məbləğində yardım göstərilməsi haqqında yekun qərarın qəbul olunmasında ölkəmizin və onun qüdrətli liderinin qətiyyətli mövqeyi xüsusi qeyd edilməlidir.

COP29-da Bakı Maliyyə Məqsədi (BMG) barədə razılıq əldə olundu, Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi, İtki və Zərər Fondu tam şəkildə institutlaşdırıldı, Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı, 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Bununla da Azərbaycan bir daha sübut etdi ki, ölkəmiz yaşadığımız dünyada həyatın xilası naminə atdığı addımlarla qlobal problemlərin həllinə öz töhfəsini verə biləcək böyük potensiala, gücə və iradəyə malikdir.

Prezident İlham Əliyev "Yaşıl dünya naminə həmrəylik" şüarını dünya miqyasında səsləndirərək birləşdiricilik və qlobal liderlik qabiliyyətlərini bir daha yüksək səviyyədə nümayiş etdirdi. COP29 sədrliyinin fəaliyyət gündəliyində irəli sürülən və addım-addım reallaşdırılan qlobal təşəbbüslərin məqsədi sinerjini, əlaqəliliyi və yüksək təsiri təmin etməklə iqlim fəaliyyətlərini sürətləndirməkdən, bütün maraqlı tərəfləri ortaq məxrəcə gətirərək iqlim dəyişmələri ilə bağlı ambisiyaları artırmaqdan ibarət olmuşdur. Xüsusilə iqlimlə bağlı maliyyə resurslarının formalaşdırılması və paylanması, "yaşıl enerji" üzrə zona və dəhlizlərin yaradılması, hidrogenlə, rəqəmsallaşdırılmaqla, su və torpaqlarla bağlı məsələlər, davamlı və sağlam şəhərlər, turizm üçün iqlim fəaliyyətləri, biomüxtəliflik və yaşıl örtük problemləri bütün dünyada olduğu kimi, Azərbaycan və onun yerləşdiyi region üçün də aktuallığı ilə seçilmişdir.

COP29 tədbirinin aktual mövzularından biri də insan kapitalı ilə bağlı olmuşdur. Çünki dayanıqlı inkişafda insan kapitalı çox mühüm rol oynayır və bu sahəyə diqqət cəmiyyətin həm balanslı, həm də ardıcıl tərəqqisini təmin edir.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nailiyyətləri sırasında bu gün tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış Azərbaycanda təbii resursların insan kapitalına çevrilməsi dövlətin ən mühüm hədəflərindən elan edilib. Bu da respublikamızın strateji planda gələcəyə yüksək həssaslıqla hazırlığından irəli gəlir.

Azərbaycan dövləti insan kapitalının inkişafı istiqamətində ardıcıl strateji addımlar atır. Dövlət başçısının qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, bu yöndə genişmiqyaslı tədbirlər həyata keçirilir. Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından, illərlə inkişafımıza mane olan problemlərin uğurla həllindən sonra Azərbaycanın daxil olduğu yeni strateji dövrdə bu məsələ xüsusilə böyük əhəmiyyət daşıyır. Bu mərhələdə əsas hədəf rifah dövləti kimi həyat standartlarını daha da artırmaq, respublikanı bütün istiqamətlərdə dünyanın ən inkişaf etmiş ölkələrindən biri statusuna yüksəltməkdir. İnsan kapitalı bu amalın reallaşdırılmasında, ölkəmizin iqtisadi inkişafı və rəqabət qabiliyyətinin artırılmasında həyati əhəmiyyət kəsb etməkdədir. Ona görə də Azərbaycan dövləti insan inkişafına yönəlmiş tədbirləri getdikcə daha da genişləndirir.

## Nüfuz və düşünülmüş siyasət

Bütün bu layihələr, mötəbər tədbirlər regionun lider dövləti kimi Azərbaycanın qlobal məkanda nüfuzunu getdikcə yüksəldir və bu da bir sıra faktorlara əsaslanır. Tarixi Zəfərimizlə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunması respublikamızın regional və beynəlxalq siyasətdə mövqeyini gücləndirdi. Münaqişənin həlli ilə ölkədə yeni geosiyasi reallıq yarandı və beynəlxalq səviyyədə daha çox diqqət çəkdi.

Yada salaq ki, Azərbaycan kimi digər postsovet ölkələrinə də müstəqillik illərinin başlanğıcından regional konfliktlər "miras" qalıb. Bu ölkələrin bəzilərində separatçılar özlərinə yuva quraraq qondarma respublikalar elan ediblər. Azərbaycan təxminən otuz illik işğal dövründən sonra torpaqlarının azadlığına, ərazi bütövlüyünə və suverenliyinə nail olan yeganə ölkədir. Azərbaycan erməni işğalçı qüvvələrin torpaqlarımızı tərk etməsi barədə BMT-nin illərdən bəri havadan asılı qalmış dörd qətnaməsinin icrasına öz gücü ilə nail oldu. Bölgəmizdə qarşılıqlı əməkdaşlıq, yeni qlobal layihələr, dayanıqlı inkişaf üçün mühüm imkanlar ortaya qoydu. Bu tarixi reallıq, təbii ki, Azərbaycanın qlobal nüfuzuna da təsir göstərən çox ciddi məsələdir.

Beynəlxalq aləmdə ölkəmizin mövqeyini gücləndirən daha bir mühüm amil Azərbaycanın fəal iştirakı ilə həyata keçirilən enerji təhlükəsizliyi və infrastruktur layihələridir. Sirr deyil ki, enerji təhlükəsizliyi qlobal siyasətdə strateji mövqeyə malikdir və iqtisadi, geosiyasi, hərbi və digər sahələrdə böyük rol oynayır. Enerji təhlükəsizliyi müasir dünya siyasətində güc balanslarını təyin edən əsas amillərdən biri kimi çıxış edir. Ölkələr həm enerji təchizatı mənbələrini şaxələndirmək, həm də enerji infrastrukturunu qorumaq üçün strateji qərarlar qəbul edirlər. Azərbaycanın enerji siyasətindəki uğurlar, təqdim etdiyi mühüm imkanlar, ən əsası isə uzun illərin sınağından çıxmış etibarlı tərəfdaş olması, Prezident İlham Əliyevin bəyan etdiyi kimi, sözünə də imzası qədər dəyər verməsi həm dövlətimizə olan marağı, həm də ölkəmizin beynəlxalq nüfuzunu getdikcə yüksəldir.

Ölkəmiz xüsusilə neft və qaz ixracında mühüm aktorlardandır. Uğurla reallaşdırılan TAP (Trans-Adriatik Boru Kəməri) və TANAP (Trans-Anadolu Boru Kəməri) kimi layihələr Avropanın enerji təhlükəsizliyində Azərbaycanın mühüm rolunu son illərdə daha da artırıb. Xüsusilə Ukrayna müharibəsi fonunda Avropa üçün etibarlı enerji təchizatçısı kimi Azərbaycanın rolu güclənir.

## Ədalətə çağırış: Qoşulmama Hərəkatını gücləndirən ölkə

Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrliyinin də ölkəmizin qlobal nüfuzunun yüksəlməsində çox əhəmiyyətli rolu oldu. Ölkəmiz Qoşulmama Hərəkatına dünyamız üçün çox mürəkkəb bir dövrdə rəhbərlik etdi. Bu dövr həm qlobal pandemiya, həm də yeni geosiyasi gərginliklərlə yadda qaldı. Belə çətin və mürəkkəb şəraitdə dövlətimiz Hərəkatın əsas prinsiplərini qorumaqla bərabər, onu daha fəal və təsirli bir beynəlxalq platformaya çevirməyə müvəffəq oldu. Azərbaycan pandemiya dövründə bu qlobal bəlaya qarşı beynəlxalq həmrəyliyi gücləndirmək üçün bir sıra təşəbbüslər irəli sürərək onların icrasına nail oldu. Belə ki, 2020-ci ildə Qoşulmama Hərəkatı ölkələrinin dövlət və hökumət başçılarının COVID-19 ilə mübarizəyə həsr olunmuş Zirvə görüşünü təşkil etdi. BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsünü irəli sürdü. Bu sessiya pandemiya ilə mübarizə üzrə qlobal səylərin koordinasiyasına mühüm töhfə verdi.

Azərbaycan 80-dən çox ölkəyə, xüsusilə inkişaf etməkdə olan dövlətlərə tibbi və humanitar yardım göstərərək dünyada örnək yaratdı. Peyvəndlərə ədalətli çıxışın təmin edilməsi üçün beynəlxalq təşəbbüslər irəli sürdü və dünya ictimaiyyətini bu təşəbbüslər ətrafında bir araya gətirməyi bacardı.

Ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi dövründə qurumun əsas prinsiplərini, o cümlədən dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq hüququnu uğurla müdafiə etdi. Təsadüfi deyil ki, Azərbaycan ərazi bütövlüyünü, dövlət suverenliyini bərpa edərkən Hərəkata üzv ölkələr ərazi bütövlüyümüzü yekdilliklə dəstəklədilər. Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi Hərəkat çərçivəsində daha geniş dəstək qazandı.

Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi inkişaf etməkdə olan ölkələrin qlobal gündəlikdəki maraqlarının qorunmasına xüsusi diqqət yetirdi. İqlim dəyişikliyi, qida təhlükəsizliyi və iqtisadi inkişaf kimi mühüm məsələlərin həllinə dəstək oldu. BMT, Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq quraraq bu ölkələrin problemlərinin qlobal səviyyədə gündəmə gətirilməsini təmin etdi.

Dövlətimiz Qoşulmama Hərəkatının institusional inkişafına nail oldu, qurumun çevik, işlək yeni təsisatları formalaşdırıldı, xüsusilə Hərəkat çərçivəsində gənclərin fəal iştirakı təşviq edildi. 2022-ci ildə Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi yaradıldı. Bu, gənclərin bu qurumun dəyərlərinə və məqsədlərinə töhfə verməsi üçün yeni imkanlar açdı. Gənclər arasında multikulturalizm, dialoq və əməkdaşlığın gücləndirilməsi istiqamətində tədbirlər keçirildi.

Azərbaycan Qoşulmama Hərəkatının BMT ilə əməkdaşlığını gücləndirərək, onun prinsiplərinin beynəlxalq təşkilatların qərarlarına təsir göstərməsi üçün çalışdı. Azərbaycanın formalaşdırdığı əsaslar qurumun gələcək fəaliyyəti üçün güclü zəmin yaratdı. Azərbaycanın sədrlik müddəti rəsmən başa çatsa da, ölkə əməkdaşlığı davam etdirir və yeni təşəbbüslərlə çıxış edir.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik dövrü qurumun beynəlxalq nüfuzunun artmasına, inkişaf etməkdə olan ölkələr arasında liderliyinin möhkəmlənməsinə və daha təsirli bir təşkilata çevrilməsinə səbəb oldu.

COP29 çərçivəsində də inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitinin keçirilməsi Bakı konfransında böyük rəğbətlə qarşılandı. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bu ölkələrlə münasibətlərin daha yüksək səviyyədə olduğunu bildirdi. Onların səsinin qlobal arenada eşidilməsinə hər cür şəraitin yaradılmasının vacibliyini söylədi və belə dövlətlərə bütün maddi və texniki dəstəyin göstərilməsini diqqətə çatdırdı. Bu gün elə etmək lazımdır ki, həmin ölkələr özlərini iqlim dəyişmələrindən qoruya bilsinlər. "Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik", - Azərbaycan Prezidenti sammitdəki nitqində dedi.

Bu nailiyyətlər Azərbaycanın beynəlxalq arenada daha fəal bir tərəfdaş kimi çıxış etməsinə geniş imkanlar yaratdı.

## Türk dünyasının birlik mərkəzi

Azərbaycan Türk Dövlətləri Təşkilatında fəal rol oynayaraq həm qurumun gücləndirilməsinə, həm də türkdilli dövlətlər arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsinə mühüm töhfələr verir. Ölkəmizin bu təşkilatdakı liderliyi həm tarixi bağlara, həm də strateji maraqlara əsaslanır. Son illər ərzində respublikamız Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun artırılması və təsir dairəsinin genişləndirilməsi istiqamətində bir sıra mühüm təşəbbüslərlə çıxış edib. Təşkilatın 2021-ci ildə Türk Dövlətləri Təşkilatı adını alması və onun institusional inkişafında Azərbaycanın təşəbbüsləri müstəsna rol oynayıb. Ölkəmizin tarixi zəfəri təşkilata üzv dövlətlər arasında həmrəylik ruhunu daha da gücləndirdi. Azərbaycanın regionda yaratdığı yeni tarixi reallıqlar türk dövlətləri arasında da daha sıx əməkdaşlıq üçün zəmin hazırlamış oldu. Bu möhtəşəm qurumun üzv ölkələri ərazi bütövlüyümüzə dəstək göstərərək regional təhlükəsizlik məsələlərində vahid mövqe nümayiş etdirdilər.

Azərbaycanın regional nəqliyyat və logistika layihələrində bu qurum çox mühüm rol oynayır. Zəngəzur dəhlizinin açılması perspektivi türk dövlətlərini birləşdirən strateji nəqliyyat marşrutu kimi təşkilat çərçivəsində prioritet məsələlərdən biridir. Azərbaycan həmçinin Orta dəhliz təşəbbüsü vasitəsilə türk dövlətlərini Avropa ilə birləşdirərək beynəlxalq ticarət və tranzit imkanlarını genişləndirir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi nəhəng kommunikasiya infrastrukturu layihələri başqa ölkələr üçün də qlobal əhəmiyyəti ilə yanaşı, həmçinin Türk Dövlətləri Təkilatının iqtisadi inteqrasiyasını gücləndirir. Azərbaycan enerji sahəsindəki təcrübə və imkanlarını da qardaş türk dövlətləri ilə paylaşır. TANAP və digər enerji layihələri vasitəsilə bu dövlətlərin Avropanın enerji bazarına çıxışı təmin olunur.

Azərbaycan ortaq tarixə malik bu ölkələr arasında iqtisadi-ticari, mədəni əlaqələrin gücləndirilməsi üçün də çox mühüm addımlar atır, türk dünyasının geosiyasi mərkəzi kimi çıxış edərək əməkdaşlıq üçün yeni perspektivlər açır. Ölkəmizin təşkilatda fəal iştirakı türkdilli dövlətlər arasında siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin gücləndirilməsinə töhfə verir. Bu fəaliyyətlər həm Azərbaycanın milli maraqlarına xidmət edir, həm də türk dünyasında inteqrasiyanı dərinləşdirir və təşkilatın qlobal nüfuzunu artırır.

## Dialoq məkanı

Geostrateji baxımdan Qərblə Şərqin təmas məkanında qərar tutan Azərbaycan sivilizasiyalar arasında dialoq missiyasını son onilliklərdə uğurla yerinə yetirir. Ölkəmiz beynəlxalq səviyyədə müxtəlif dialoq platformaları, 2008-ci ildən davam edən "Bakı prosesi" vasitəsilə müxtəlif dinlər və millətlər arasında əməkdaşlığa töhfə verir. İqtisadiyyatın diversifikasiyası, beynəlxalq əməkdaşlıq və daxili sabitlik məsələləri respublikamızın beynəlxalq nüfuzunu artıran tendensiyaların davam etməsində mühüm rol oynayır. Belə bir fəaliyyət isə milli maraqlarımızın qorunması və ölkəmizin qlobal proseslərdə daha da aktiv iştirak imkanlarını genişləndirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində bu proses bundan sonra da davam edəcəkdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Sülh olacaq, güzəşt olmayacaq

**2024-cü il Cənubi Qafqazda sülh üçün vacib il oldu. Bu ilin fevral ayından başlayaraq Azərbaycan və Ermənistanın rəhbərləri və XİN başçıları Almaniyada, Qazaxıstanda və digər məkanlarda görüşlər keçirdilər. Almatıda nazirlər və onların nümayəndə heyətləri "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş" layihəsinin müddəalarının müzakirəsini davam etdirdilər.**

Bütün bu görüşlər, razılaşmalar göstərdi ki, sülh müqaviləsinin imzalanması üçün vasitəçiyə ehtiyac yoxdur. Tərəflər öz aralarında danışıq apararaq razılıq əldə edə bilərlər. Belə də oldu...

Amma Cənubi Qafqazda daimi sülhün yaranacağını görən bəzi Qərb dairələri bundan ciddi narahat olmaqla yanaşı, köhnə ssenarilərini işə salmağa başladılar. Ermənistanın havadarları demək olar ki, danışıqlara əngəl yaratmaqla sülh sazişinin imzalanmaması üçün müxtəlif yollara əl atdılar. İlk olaraq Ermənistanı yenidən silahlandırıb revanşizm meyillərini yenidən oyatmaq istədilər. Fransa və Hindistanın verdiyi pulsuz silahlar, Yunanıstanın "S 300" raket komplekslərini Ermənistana vermək niyyəti, adını "sülh fondu" qoyub Hayastana silah-sursat, hərbi texnikaların alınması üçün milyonlarla dollar ayıran Avropa İttifaqının "Avropa Sülh Fondu" İrəvanı yenidən revanşist fikirlərə saldı.

Bir tərəfdən Fransa, digər tərəfdən Aİ-nin Ermənistanı silahlandırması bu qüvvələrin, əslində, Qafqazda yeni münaqişə ocağının yaranmasında maraqlı olduqlarını bir daha göstərdi. Bundan istifadə edən keçmiş hərbi xunta ölkəni müharibəyə sürükləməyə çalışdı. Elə rəsmi İrəvanın da sülh müqaviləsini imzalamamaq üçün müxtəlif bəhanələrə əl atması baş nazir Nikol Paşinyanın ikibaşlı oyun oynadığını göstərdi.

Lakin Bakı sülhdə maraqlı olmaqla yanaşı, prosesin qalıcı olmasına xüsusi diqqət yetirir. Ermənistanın mövcud Konstitusiyası da yekun sülhün önündə başlıca maneədir. Konstitusiyasının bəzi maddələrində başda Azərbaycan olmaqla ətraf ölkələrə qarşı ərazi iddiaları əks olunub. Bakı gələcəkdə Ermənistanın hüquqi bəhanələrlə sülh müqaviləsini pozmasını, üzərinə götürdüyü öhdəliklərdən yayınmasını istəmir.

Aparılan son danışıqlarla bağlı məlumat verən xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, bu il Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində müsbət irəliləyişlər olub. Buna misal kimi bu ilin aprelində ilk dəfə olaraq iki ölkə arasında dövlət sərhədinin müəyyən hissəsinin delimitasiyasının və demarkasiyasının həyata keçirilməsini qeyd etmək olar. Nazir bildirib ki, Ermənistanla sülh müqaviləsi üzrə fiziki görüşlər həyata keçirilib. Həmçinin mətn üzrə mübadilələr davam etdirilib. Açıq sualların olmasına baxmayaraq, sülh müqaviləsi prosesində bəlli irəliləyişlər də əldə edilib.

Sülh müqaviləsi ilə bağlı layihə preambula və 17 maddədən ibarətdir. Preambula və 15 maddə üzrə mətnlər tam razılaşdırılıb, iki maddə üzrə isə açıq suallar var. Həmin açıq suallar üzrə işlər davam edir. Artıq bir neçə raund danışıqlar və mətn mübadilələri həyata keçirilib. Hələ ki, tam razılaşdırılmış varianta gəlmək mümkün olmayıb.

Nazir qeyd edib ki, bundan əlavə, çox önəmli digər məsələ Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının mövcudluğu ilə əlaqədardır: "Bununla bağlı Ermənistandan qətiyyətli addımlar gözləyirik. Son zamanlar Ermənistan tərəfindən eşitdiyimiz arqumentlər bizi qane edə bilməz. Onu da qeyd etmək istərdim ki, Ermənistanın Konstitusiya Məhkəməsinin növbəti qərarı oldu. Belə ki, Konstitusiya Məhkəməsi Ermənistan Konstitusiyasının preambulasının dəyişməz olduğu və xüsusi olaraq preambulaya toxunmağın mümkün olmaması barədə qərar qəbul edib. Hesab edirik ki, bu, vəziyyəti daha da mürəkkəbləşdirir. Çünki məhz Ermənistanın Konstitusiyasının preambulasında Ermənistanın Müstəqillik Bəyannaməsinə istinad var. Həmin Müstəqillik Bəyannaməsində də Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar yer alır", - deyə nazir əlavə edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev isə Ermənistanın silahlandırılması məsələsinə toxunaraq vurğulayıb ki, məğlub ölkənin silahlandırılması məsuliyyətli parametrlər çərçivəsində olmalıdır. Onun sözlərinə görə, Ermənistanın militarizasiya proqramı həyata keçirilir. Bunun arxasında duran əsas qüvvələrdən biri Avropa İttifaqının və NATO-nun üzv ölkəsi olan Fransadır. Təəssüf ki, Fransa özünün beynəlxalq öhdəliklərinə rəğmən Ermənistanın silahlandırılması ilə bağlı proqramda iştirak edir.

Hikmət Hacıyev bildirib ki, beynəlxalq münasibətlərin məcəllələşdirilməsi prosesi İkinci Dünya müharibəsindən sonra başlayıb. Bu prosesdən sonra azsaylı ölkələr var ki, işğal və təcavüz törədib. Ermənistan da belə bir cinayət törətmiş ölkədir. Ermənistana xüsusilə Fransa tərəfindən verilən öldürücü və hücum xarakterli silahlar ciddi narahatlıq doğurmaqdadır. Ermənistanın silahlandırılması təkcə Fransa deyil, başqa dövlətlər tərəfindən də həyata keçirilir.

Prezidentin köməkçisi həmçinin qəti şəkildə vurğulayıb ki, Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyəti başa çatmalıdır. İki ölkənin sərhədində üçüncü dövlətin qüvvələrinin yerləşdirilməsi narahatlıq doğuran faktdır. Azərbaycan Respublikası dəfələrlə bunu bildirib: "Biz Ermənistan-Azərbaycan sərhədində Avropa İttifaqının (Aİ) missiyasının yerləşdirilməsinə hər hansı lüzum görmürük. Azərbaycan Prezidentinin, Fransa Prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin (sabiq prezidenti - red.) və Ermənistanın baş nazirinin iştirakı ilə Praqada razılaşdırılmışdı ki, missiya qısamüddətli olacaq. Amma gördüyümüz kimi, missiya davamlı prosesə çevrilir və onun tərkibi genişləndirilir. Hətta coğrafi mandat ərazisi də genişləndirilməkdədir".

Hikmət Hacıyev bildirib ki, Azərbaycanla Ermənistan arasında qarşılıqlı anlaşma və sülh şəraitində delimitasiya-demarkasiya prosesi aparılırsa, burada üçüncü qüvvənin olmasına, onun tərkibinin hərbi xarakterli qüvvələrlə zənginləşdirilməsinə və genişləndirilməsinə ehtiyac görmürük. Ona görə də sülhün gücləndirilməsi bilavasitə Azərbaycanla Ermənistan arasında olan prosesdir və ikitərəfli xarakter daşıyır. Əksinə, üçüncü qüvvənin iki ölkənin sərhədində olması vəziyyətin müəyyən dərəcədə gərginləşdirilməsinə, Avropa İttifaqının bütövlükdə Cənubi Qafqazda hərbi amil kimi meydana çıxmasına xidmət edir.

Əlbəttə ki, Azərbaycan bütün prosesləri izləyir və Ermənistanın yenidən müharibəyə hazırlıq faktlarını görür. Əgər Ermənistan düşdüyü acınacaqlı durumdan qurtulmaq istəyirsə, sülh müqaviləsini imzalamalıdır. Yox, əgər məğlub ölkə revanşa hazırlaşırsa, onda yaxşı anlamalıdır ki, savaş baş versə, yenidən bu acını yaşayacaq, ABŞ-nin, Hindistanın, Fransanın müasir silahları, texnikaları Azərbaycan Ordusunun arsenalına daxil olacaq, Bakıdakı Hərbi Qənimətlər Parkının eksponatlarının sayı artacaq.

Noyabrın 8-də Bakıda Zəfər parkının açılışında Müzəffər Ali Baş Komandan bir daha Ermənistana xəbərdarlıq etmişdi. Prezident bildirmişdi ki, bu gün bu vəziyyətlə barışmaq istəməyən antiazərbaycançı qüvvələr, bəzi Qərb paytaxtlarında oturan islamofoblar, azərbaycanofoblar Ermənistanı yeni müharibəyə təhrik edirlər. Bu, Ermənistan dövləti üçün tam faciə ola bilər: "Mən dəfələrlə həm rəsmi çıxışlarımda, həm təmaslar əsnasında Ermənistan tərəfinə izah etməyə çalışırdım ki, bundan uzaq dursunlar, o fitnəyə getməsinlər. Öz maraqlarını təmin etmək üçün onların dostları sayılan bəzi Qərb dövlətləri onları qurban verməyə hazırdırlar ki, yenə də Cənubi Qafqazda ara qarışsın, yenə də qan tökülsün, yenə də onlar bulanıq suda balıq tuta bilsinlər. Hələ ki, gec deyil, ona görə Ermənistan bu silahlandırma siyasətindən əl çəkməlidir, buna son qoyulmalıdır".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycan Fransanın neokolonializm siyasətini ifşa edir

### Müstəmləkə altında olan ölkələrin nümayəndələri Bakı Təşəbbüs Qrupu ətrafında birləşərək azadlıq səslərini dünyaya çatdırırlar

**Azərbaycan bütün beynəlxalq platformalarda kolonializmə qarşı fəal mübarizə aparır, müstəmləkə siyasəti həyata keçirən Fransanı ifşa edir.**

Bu gün müstəmləkə altında olan ölkələrin nümayəndələri Bakı Təşəbbüs Qrupu (BTQ) ətrafında birləşiblər. Ölkəmizin sədrliyi dövründə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupu yaradılıb. Qrup müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. İndiyədək BTQ kolonializmə aid 22 tədbir keçirib. 3 memorandum imzalanıb.

Noyabrın 11-dən 23-dək Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində BTQ xüsusi fəallığı ilə diqqət çəkib. XXI əsrdə də müstəmləkəçiliyi qınayan təxminən 10 tədbir təşkil edilib. Tədbirlərdə Korsika, Kanaki (Yeni Kaledoniya), Martinik, Fransız Qvianası, Qvadelupa, Boneyr, Sent-Martin və Mayotdan olan nümayəndələrin iştirakı müstəmləkəçiliyə qarşı mübarizəyə böyük töhfə verib.




#### Makron rejimi insan hüquqlarını pozur

Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitinin keçirilməsi isə müstəsna əhəmiyyətə malik oldu. Sözügedən sammitdə çıxışında "...Mən beynəlxalq gündəlikdə mühüm məsələlərdən birini də qaldırmaq istəyirəm - neokolonializm və iqlim dəyişmələri. Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır" deyən Prezident İlham Əliyev vurğuladı ki, artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox halda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Ancaq kolonializm siyasətini günümüzdə də davam etdirən Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır. Guya özünü dünyada "ədalət"in, "insan haqları"nın qoruyucusu kimi aparmağa çalışır. Lakin Fransanın təkcə yaxın zamanlarda dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısına baxanda Makron rejiminin insan hüquqlarını necə pozduğunu görmək olur. Fransa dövləti Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoyub, 169 nəfər yaralanıb, 1700 insan həbs edilib. Həmçinin bu il Martinik və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub.

Sözügedən sammitdə Fransanın törətdiyi cinayətlərdən danışan dövlətimizin başçısı söylədi ki, bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi: "Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır".

#### Korsika yenidən öz dilində danışmaq hüququndan məhrum edilib

Ötən həftə BTQ-nin təşkilatçılığı ilə Fransa və Niderlandın müstəmləkəçiliyi altındakı Sen Martin adasına həsr edilmiş beynəlxalq konfrans keçirildi. "Sent-Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale" adlı konfransda müstəmləkəçiliyə qarşı mübarizə aparan və azad olmağa çalışan Sent-Martin xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların, qeyri-bökumət təşkilatlarının rəhbərləri, parlament üzvləri, hüquq müdafiəçiləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak etdilər.

Sent-Martin parlamentinin üzvü Franklin Meyers bildirib ki, istər Fransanın, istərsə də Niderlandın müstəmləkəçiliyindən qurtularaq müstəqil olmaq xalqların ən müstəsna hüququdur.

Qeyd edək ki, Sent-Martin adası həm Fransa, həm də Niderland tərəfindən müstəmləkə edilib və 1648-ci ildən bəri bu iki dövlət arasında bölünüb. Adanın fransız hissəsi "Saint-Martin", Niderland hissəsi isə "Sint-Maarten" adlanır. Bu iki imperiya adanın idarəçilik, mədəniyyət və hüquq sistemlərini özlərindən asılı vəziyyətə salıb.

Məlumat üçün bildirək ki, dekabrın 15-də Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin Korsika adasına apostol səfərinə gedəcəyi gözlənilir.

Ötən çərşənbə günü BTQ tərəfindən Roma Papasına məktubla müraciət ünvanlanması da vacib əhəmiyyət daşıdı. Belə ki, həmin məktubda BTQ-nin icraçı direktoru Abbas Abbasov Müqəddəs Papa Fransisk Apostolikə Korsikanın dekolonizasiyası prosesinə dəstək üçün müraciət edib. "Korsika katolik dini ənənəsini qoruyub saxlamış bir torpaqdır və bu xalq müasir idarəetmə dinamikaları qarşısında öz unikal kimliyini, mədəniyyətini və dəyərlərini qorumaq üçün uzun müddətdir mübarizə aparmaqda davam edir", - deyə müraciətdə bildirilir.

Müraciətdə qeyd edilir ki, 19 noyabr 2024-cü ildə Marsel İnzibati Apellyasiya Məhkəməsinin qadağa qərarından sonra Korsika yenidən öz dilində danışmaq hüququndan məhrum edilib.

Gətirdiyimiz bu nümunələr də göstərir ki, Fransa beynəlxalq hüququ ayaqlar altına ataraq müstəmləkəçilik siyasətindən əl çəkmir və insanların azadlıq hüququnu heçə sayıb onlara qarşı cinayət törədir.

Ancaq Azərbaycan müstəmləkəçiliyə qarşı bütün qlobal platformalarda mübarizə aparır, Fransanı ifşa edir. Beləliklə, Makron rejimi tərəfindən istismar edilən xalqların azadlıq səsləri Bakı Təşəbbüs Qrupu tərəfindən dünyaya çatdırılır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## *Abbas ABBASOV:* "BTQ dekolonizasiya sahəsində tanınmış araşdırmaçılarla birgə işlər görür"



**"Bakı Təşəbbüs Qrupu (BTQ) 2024-cü ildə 5 memorandum imzalayıb. BTQ beyin mərkəzi kimi xarici tədqiqatçılarla sıx əməkdaşlıq edir, dekolonizasiya sahəsində tanınmış araşdırmaçılarla birgə işlər görür".**

AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Dekolonizasiya Günü münasibətilə BTQ-nin genişmiqyaslı hesabatının təqdimatı zamanı söyləyib.

O bildirib ki, bu xüsusda xarici tədqiqatçılar tərəfindən iki sanballı hesabat hazırlanıb. Tədqiqatın məqsədlərindən biri materik Fransanın dənizaşırı əraziləri ilə eyni idarəçiliyə və qanunvericiliyə baxmayaraq kəskin fərqləndiyini, bu xüsusda Fransa hökumətinin məqsədyönlü diskriminasiya siyasəti yürütdüyünü oxuculara göstərməkdir. Gəlir səviyyələri, iqtisadi struktur, xarici borc, idxal və ixrac, enerji istehsalı və infrastruktur kimi əsas iqtisadi göstəricilərə diqqət yetirməklə bu araşdırma hər bir regionun üzləşdiyi fərqli çətinlikləri və imkanları təqdim edir.

## "Fransanın dənizaşırı əraziləri daha çox iqtisadi və sosial çətinliklərlə üzləşirlər"

**"İqtisadi bərabərsizliklər və inkişafa dair çağırışlar: Fransanın bəzi dənizaşırı əraziləri ilə ABŞ-nin asılı ərazilərinin müqayisəli təhlili"ndə də materik Fransa ilə onun dənizaşırı əraziləri, faktiki müstəmləkələri olan Yeni Kaledoniya və Fransız Polineziyası arasındakı iqtisadi, eləcə də əhalinin sosial vəziyyəti və həyat şəraiti, gəlirləri, logistik imkanları və sair fərqlərin müqayisələri aparılıb".**

AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Təşəbbüs Qrupunun (BTQ) şöbə müdiri Elgün Hacıyev Dekolonizasiya Günü münasibətilə BTQ-nin genişmiqyaslı hesabatının təqdimatı zamanı söyləyib.

O bildirib ki, Fransa iqtisadiyyatı istehsal, xidmət və texnologiya kimi sənayelərin əhəmiyyətli töhfələri ilə yüksək şaxələnib. Bunun əksinə olaraq, Yeni Kaledoniya və Fransız Polineziyasının iqtisadiyyatı materik Fransa ilə müqayisədə məhdud diversifikasiyalı turizm, mədənçıxarma və kənd təsərrüfatı kimi xüsusi sektorlardan yüksək asılılıqla xarakterizə olunur. Bundan əlavə, Fransada adambaşına düşən ümumi daxili məhsul nisbətən çox olsa da, onun xaricdəki əraziləri daha yüksək işsizlik səviyyəsi, adambaşına düşən gəlirin aşağı olması kimi problemlərlə üzləşirlər.

"Tədqiqat həmçinin Fransanın dənizaşırı ərazilərinin enerji istehsalı imkanlarını araşdırır. Bildirilir ki, xüsusilə Yeni Kaledoniya mədən sənayesindən, Fransız Polineziyası isə turizm və enerji idxalından asılıdır", - deyə şöbə müdiri qeyd edib.

## Qərbin çirkin planları iflasa məhkumdur



**"Ermənistan rəhbərliyi yenə dünya ictimaiyyətinə özlərini "sülhsevər" kimi qələmə vermək istəyir və Azərbaycanla sülh sazişi bağlamağa hazır olduğunu bəyan edir. Əslində isə, ermənilər sözdə sülhə hazır olduqlarını bəyan etsələr də, Azərbaycana qarşı qeyri-konstruktiv mövqe nümayiş etdirirlər".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva deyib. O bildirib ki, Ermənistanın bu riyakar siyasətinin arxasında Avropa Parlamenti, AŞPA kimi beynəlxalq təşkilatlar və Fransa dayanır. Bu təşkilatların və bəzi ölkələrin niyyəti Cənubi Qafqaz regionunda sülhün, əmin-amanlığın pozulmasıdır. Onların məqsədi Cənubi Qafqaz ölkələrində qarşıdurma yaratmaq, dövlətləri bir-birinə qarşı qoymaqdır. Bugünkü Ermənistan tamamilə Qərbin nəzarətində olan, onların əmrlərinə tabe olan bir ölkəyə çevrilib. "Kollektiv Qərb Gürcüstanda da xalqın milli maraqlarını qoruyan, gürcü xalqını tərəqqi və inkişafa aparmaq istəyən hazırkı hökuməti devirməyə, özlərinə qulluq edən birini hakimiyyətə gətirməyə çalışır. Əminəm ki, gürcü xalqı Qərbin bu fitnəkarlığına uymayacaq və müstəqil, demokratik siyasətə sadiq olacaq. Fransa və onun yanında olan bəzi Qərb dövlətləri Azərbaycanda da öz çirkin siyasətlərini həyata keçirməyə, dağıdıcı müxalifət və pulla ələ alınmış bəzi QHT-lər vasitəsilə bu niyyətlərini reallaşdırmağa çalışırlar. Azərbaycan xalqı müdrik xalqdır və daxildəki bu cür vətən xainlərini çox yaxşı tanıyır. Xalqımız öz lideri Prezident İlham Əliyevin ətrafında sıx birləşib və heç bir qüvvə bu birliyi sarsıda bilməz", - deyə ekspert əlavə edib.

Kafedra müdiri qeyd edib ki, Avropa İttifaqı Azərbaycana qarşı Ermənistan vasitəsilə təxribatlar törətməyə çalışır. Bir neçə gün əvvəl Fransanın Ermənistandakı səfiri Olivye Dekotinye növbəti dəfə Ermənistan-Azərbaycan sərhədinə gəldi. Avropa İttifaqının mülki missiyası Fransanın Ermənistandakı səfirini qərargahlarında qəbul etməkdən şərəf duyduqlarını bildirdi. Bu, Fransanın Azərbaycana qarşı həyata keçirdiyi düşmənçilik siyasətinin növbəti sübutudur. Fransa və onun əlaltıları olan beynəlxalq təşkilatlar bilməlidirlər ki, Cənubi Qafqazda İlham Əliyev kimi güclü siyasətçi və xalqın güvəndiyi lider var. Odur ki, onların regiondakı çirkin oyunları məğlubiyyətə məhkumdur.

K.Əliyeva söyləyib ki, Ermənistan rəhbərliyi də Qərbin boyunduruğundan çıxmalı və öz Konstitusiyasında dəyişiklik edərək Azərbaycana qarşı ərazi iddialarından əl çəkməlidir: "Ermənistanın baş naziri Nikol Paşinyanın arxalandığı Fransada bu gün dərin siyasi və iqtisadi böhran hökm sürür. Fransa Makronun yeritdiyi yarıtmaz siyasət nəticəsində beynəlxalq aləmdə nüfuzunu günbəgün itirməkdədir. Fransızlar özləri də Makronun səriştəsiz və ağılsız dövlət başçısı olduğunu vurğulayırlar. Ümid edirəm ki, Ermənistanın siyasi rəhbərliyi reallığı və həqiqətləri başa düşəcək, xalqının və dövlətinin gələcəyi naminə hər gün güclənən Azərbaycanla səmimi qonşuluq münasibətləri quracaq".

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*

## Əsəd rejiminin devrilməsi ilə Ermənistan strateji müttəfiqini itirdi

**"Suriyada Bəşər Əsəd rejiminin devrilməsini uzun müddət gözlənilən, lakin bir qədər gecikmiş proses olaraq qiymətləndirə bilərik. "Ərəb baharı" zamanı təməli sarsılmış Əsəd rejimi bu illər ərzində xarici güclərin dəstəyi ilə mövcudluğunu qorusa da, daxili sosial, iqtisadi və hərbi böhranlar onun çöküşünü sürətləndirirdi".**



Bu sözləri "Azərbaycan" qəzetinə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Lalə Xəlilzadə deyib. O bildirib ki, son illərdə Suriyanın müxtəlif bölgələrində keçirilən nümayişlər və etiraz aksiyaları Əsəd hökumətinə qarşı artan narazılığı göstərirdi. 2024-cü ilin iyul ayında Suriyada keçirilən parlament seçkiləri ölkənin bir sıra əyalətlərində nümayişlər və narazılıqlar fonunda baş tutub. Bu seçkilər həm də Suriya iqtisadiyyatının yüksək inflyasiya səviyyəsi və Qərbin sanksiyaları fonunda pisləşməyə doğru davam etdiyi, münaqişənin siyasi həlli ilə bağlı Birləşmiş Millətlər Təşkilatının rəhbərlik etdiyi prosesin dayandırıldığı bir vaxta təsadüf edirdi. "Rejimin devrilməsindən dörd ay əvvəl keçirilən bu seçkilər xalq tərəfindən etimadla qarşılanmırdı. Çünki Suriya xalqı burada əsas məqsədin seçkilər əsasında formalaşacaq yeni parlamentin Bəşər Əsədin səlahiyyət müddətini uzatmasına imkan verəcək Konstitusiya dəyişikliyini qəbul etməsi olduğunu anlayırdı. Seçkilərin ölkənin siyasi, iqtisadi, sosial həyatında və digər sahələrdə baş verən çətinliklərin həllinə töhfə verəcəyinə ümid bəslənsə də, hər hansısa ciddi dəyişikliyə səbəb olacağı gözlənilmirdi. Məhz dörd ay sonra, cəmi on gün ərzində müxalif qruplar Əsəd rejimini devirdilər. Rejimin sürətlə süqut etməsi həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük təəccüblə qarşılandı. Əsas narahatlıq isə Suriya hökumətinə müttəfiq ölkələr arasında müşahidə olundu. Bu sırada Ermənistanı xüsusi qeyd edə bilərik", - deyə təhlilçi bildirib.

Suriyanın erməni diasporunun ən geniş yayılmış ölkələrdən olduğunu vurğulayan L.Xəlilzadə deyib ki, erməni icmasının burada ən mütəşəkkil olduqları bölgələr Hələb, Dəməşq, Cəzirə (Qamışlı, Hasicə, Tərik), Əl-Laziqiyyə və Kasabdır. Hələb Suriyada erməni icmasının ən çox məskunlaşdığı şəhərdir. Müharibədən əvvəl Hələbdə 40 minə yaxın erməni yaşayırdısa, bu gün onların sayı 12-15 min civarındadır. Dəməşq erməni icmasının ən sıx cəmləşdiyi ikinci Suriya şəhəridir. Bu şəhərdə müharibədən əvvəl 10 min erməni yaşayırdı. Hazırda bu say iki dəfə azalaraq, 5-6 min təşkil edir. Həmçinin Suriyada ermənilər XX əsrin əvvəllərindən etibarən ölkənin siyasi həyatında görmək mümkün idi. B.Əsədin 11 yeni nazirdən ibarət təsdiqlədiyi yeni hökumətin tərkibinə erməni qadın nazir daxil edilmişdi. Suriyada ətraf mühitin mühafizəsi üzrə dövlət naziri təyin edilən Nazirə Fərəh Sarkis 1962-ci ildə Suriyada doğulan Hələb ermənisidir: "1928-2011-ci illər ərzində ermənilər Suriya Parlamentində 21 millət vəkili ilə təmsil olunurdular. Ən çox Suriya Parlamentinə seçilən şəxs Krikor Abliqatin olmuşdur. O, səkkiz dəfə parlamentin üzvü seçilib. Ardınca Fətullah Asyon dörd dəfə, Nikolas Cansi, Moses Der Kaloustiyan və Dikran Giraqiyan üç dəfə Suriya Parlamentində təmsil ediliblər. 2015-ci ildə Bəşər Əsədin himayəsi altında Dəməşqin İçəri şəhər ərazisində erməni "soyqırımı" qurbanlarının xatirəsinə ucaldılacaq abidənin təməl daşının qoyulması mərasimində Antakyanın Süryani Pravoslav Patriarxı İqnatius II Afram Kərim, Dəməşq Erməni Kilsəsinin Primatı yepiskopu Armaş Nalbandyan və Dəməşqdəki bir sıra xristian konfessiyalarının rəhbərləri, millət vəkilləri ilə yanaşı, Suriyada ətraf mühitin mühafizəsi üzrə dövlət naziri Nazirə Sarkis və Dəməşq qubernatoru Bişr Əs-Sabban da iştirak etmişdilər.

Suriyadakı erməni icmasının "Kantsasar" adlı mətbu orqanı da fəaliyyət göstərir. Bu mətbu orqanın adı Kəlbəcər rayonunun Vəngli kəndində yerləşən və erməni işğalı nəticəsində mənimsənilərək erməni monastrı olaraq adlandırılan Gəncəsərə ithafən adlandırılıb".

Siyasi ekspert bildirib ki, "Kantsasar"ın banisi və baş redaktoru Zarmik Pohikyan əslən Hələb ermənisidir və 2017-ci ildə Ermənistanın müstəqilliyinin 25-ci ildönümü münasibəti ilə bu ölkənin Hələbdəki Baş konsulluğunda keçirilən tədbirdə vətən-diaspor əlaqələrinin inkişafında verdiyi xidmətlərinə görə "Movses Xorenatsi" medalı ilə təltif edilib. Bu mətbu orqanının prioritet rolu Suriyada erməni icmasının fəaliyyətini işıqlandırmaq, Suriya-Ermənistan əlaqələri haqqında davamlı xəbərlər dərc etmək, eyni zamanda antitürk və anti-Azərbaycan siyasətini təbliğ etməkdir. "Kantsasar" həmçinin Fransanın "Le Figaro Magazine", Ermənistanın "Armenpress" xəbər agentliklərinin antitürk və anti-Azərbaycan xəbərlərini mütəmadi olaraq nəşr edir.

L.Xəlilzadə vurğulayıb ki, dünyanın müxtəlif ölkələrində özlərinə mövqe tutmaqla qondarma tarixlərini yaymağa çalışan ermənilər üçün Suriya daha əlçatan olub: "Belə ki, erməni "soyqırımı"nı tanıyan iki ərəb ölkəsindən biri olan Suriya həm də Ermənistan hökuməti ilə sıx bağları olan keçmiş Əsəd rejiminin müttəfiq ölkələrindən biri idi. Beləliklə, Əsəd rejiminin devrilməsi ilə Ermənistanın təkcə öz müttəfiqini deyil, eyni zamanda "müdafiəçi"sini itirdiyini deyə bilərik.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat

## Sosial sahəyə ayrılan vəsait əhalinin rifahına hesablanıb

**2025-ci ilin büdcə layihəsinin müzakirələri yekunlaşmaq üzrədir. İki oxunuşdan keçən büdcə layihəsi sonuncu mərhələdən sonra Milli Məclisin plenar iclasında qəbul olunacaq və təsdiqlənməsi üçün Prezidentə təqdim ediləcək. Hər zaman olduğu kimi, gələn ilin büdcə layihəsində də sosial sahəyə ayrılan vəsait (təxminən 41 faiz) hər bir Azərbaycan vətəndaşının rifahına hesablanıb.**



Bu baxımdan 2025-ci ilin dövlət büdcəsində sosialyönümlü xərclərin qeyd etdiyimiz kimi, prioritet təşkil etməsi təbiidir. Növbəti ilin dövlət büdcəsində həmin xərclər 16 milyard 909,7 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da 2024-cü ilin büdcəsi ilə müqayisədə 1 milyard 370 milyon manat və ya 8,8 faiz çoxdur. 2025-ci ilin baş maliyyə sənədi layihəsində əməkhaqqı, pensiya və sosial müavinətlər, ünvanlı sosial yardım və digər sosial xərclər üçün müvafiq məbləğdə vəsait nəzərdə tutulub.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev mətbuata açıqlamasında növbəti il üzrə Dövlət Sosial Müdafiə Fondunun (DSMF) büdcəsində 10-15 faizlik artım olacağını bildirib: "Bu, təxminən 7,7 milyard manat vəsait deməkdir, yaxud cari ildəkindən 1,2 milyon manat çox. Eyni zamanda İşsizlikdən Sığorta Fondunun büdcəsində də 9,5 faizlik artım gözlənilir. Bu, imkan verəcək ki, gələn il əməkhaqlarının və pensiyaların minimum məbləğləri artsın". Məlumdur ki, dünyanın başı üzərində dolaşan inflyasiya və bahalaşma adlı kabus ölkəmizdən də yan keçmir. Təcrübə isə göstərir ki, bahalaşma ilk növbədə əhalinin aşağı və orta təbəqəsinə daha çox təsir edir. Ona görə də bu insanların inflyasiyadan daha az ziyan çəkmələri üçün dövlət sosial siyasətində dəyişiklik etməli olur. Vaxtaşırı sosial sahədə islahatlar aparılır, əhalinin aşağı və orta təbəqəsini əhatə edən sosial güvənlik tədbirləri həyata keçirilir, o cümlədən dövlət büdcəsindən maliyyələşən sahələrdə çalışanların əməkhaqlarında, pensiyalarda, sosial müavinətlərdə inflyasiyanı üstələyən artımlar edilir.

Bu baxımdan 2025-ci ilin dövlət büdcəsi də istisna olmayacaq. Layihədə yaşa görə pensiyanın məbləğinin 571 manata çatdırılması nəzərdə tutulur, yəni indikindən təxminən 50 manat artıq. Orta pensiyanın məbləğinin isə təxminən 535 manata çatacağı hədəflənir ki, bu da indikindən 45 manat çoxdur. Musa Quliyev bu barədə demişdir: "Bəzi vətəndaşlarımız daha çox pensiya artımını hiss edəcəklər, orta artım təxminən 45-50 manat arasında olacaqdır. Cənab Prezident parlamentin yeddinci çağırışının ilk iclasındakı çıxışında da bəyan etmişdir ki, gələn ildən həm minimum əməkhaqqı, həm də pensiyaların minimum məbləği artırılacaq. Gələn il bütün vətəndaşlarımız öz əməkhaqlarında artımı hiss edəcəklər. Əvvəlki illərin təcrübəsini nəzərə alsaq söyləyə bilərik ki, bu artım təxminən 12-15 faiz məbləğində olacaqdır. İndiki dövrdə bizdə minimum əməkhaqqı 345 manatdır. Gələn il isə bunun 400 manata çatdırılması proqnozlaşdırılır. Amma bu məbləğdən aşağı da ola bilər".

Beləliklə, əhalinin sosial müdafiəsini daha da gücləndirmək, o cümlədən inflyasiya və bahalaşmadan aztəminatlı təbəqəyə dəyən ziyanın qarşısını almaq məqsədilə görülən tədbirlər gələn il də davam etdiriləcək. İnsanların sosial müdafiəsinə hesablanmış bu tədbirlərin mərkəzində isə Prezident İlham Əliyevin sosial-iqtisadi siyasəti dayanır. Özünün təbirincə desək, əslində, bu islahatlar yenilik, yeni yanaşma və mövcud problemlərin həlli deməkdir.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

## Pensiya ödənişlərinə 711 milyon manat çox olmaqla 5,9 milyard manat vəsait yönəldilib

**Cari ilin 11 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 14 faiz və ya 711 milyon manat çox olmaqla 5 milyard 949 milyon manat vəsait yönəldilib.**

Həmin dövrdə ölkə üzrə pensiyaların orta aylıq məbləği 13 faiz artaraq 494 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 12 faiz artaraq 527 manata çatıb.

Yanvar-noyabr aylarında 33 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 135 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb.

## Sosial Xidmətlər Agentliyi bu il 271 repatriantla sosial reabilitasiya işi aparıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin mütəxəssisləri tərəfindən 2024-cü ilin ötən dövründə 271 repatriantla sosial reabilitasiya işi aparılıb.**

Repatriasiya olunmuş hər bir şəxsin ilk növbədə sosial-psixoloji qiymətləndirilməsi həyata keçirilib. Bunun əsasında müvafiq sosial reabilitasiya planı hazırlanaraq, həmin plan üzrə sosial işçi və psixoloqlar tərəfindən sosial reabilitasiya prosesi həyata keçirilib.

Agentlik tərəfindən hazırda 47 repatriantla sosial iş çərçivəsində reabilitasiya xidmətləri davam etdirilir.

Ümumilikdə isə 2018-ci ildən bu günədək agentlik 500-dən çox repatriantı sosial reabilitasiya xidmətləri ilə təmin edib.

## Neftçala Sənaye Məhəlləsi indiyədək 180 milyon manatlıq məhsul satıb

**Son dövrlər ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq sənaye zonalarının yaradılması istiqamətində uğurlu işlər görülür. Hazırda mövcud sənaye zonalarının sayı 13-ə çatıb, bunlardan 9-u sənaye parkı, 4-ü isə sənaye məhəlləsi statusundadır.**

İqtisadi Zonaların İnkişafı Agentliyinin mətbuat katibi Elçin Kazımov AZƏRTAC-a bildirib ki, Neftçala Sənaye Məhəlləsi dövlət başçısının 2015-ci il 2 fevral tarixli sərəncamı ilə yaradılıb. Sənaye Məhəlləsi 10 hektar ərazini əhatə edir və əsas fəaliyyət istiqaməti kimi balıqçılıq, yem istehsalı, qida sənayesi, avtomobil və s. istehsal sahələri müəyyənləşdirilib.

Neftçala Sənaye Məhəlləsinin yaradılmasının ən mühüm məqsədi mikro, kiçik və orta sahibkarların sənaye sahəsində fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Sənaye məhəlləsində sahibkarlar dövlət vəsaiti hesabına infrastrukturla, torpaq sahələri, həmçinin hazır tikililərlə təmin olunurlar.

Neftçala Sənaye Məhəlləsində investisiya kapitalı 60,5 milyon manat olan 6 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən görülmüş işlərə 46 milyon manatdan çox investisiya yatırılıb, 290-a yaxın iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə sənaye məhəlləsinə əlavə olaraq 14,43 milyon manat investisiyanın yatırılması, 200-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Məhəllədə indiyədək 180 milyon manatlıq məhsul satışı edilib, bunun da 1 milyon manatlıq hissəsi ixracın payına düşür. İstehsal edilən balıq yemi məhsulunun Özbəkistana ixracı həyata keçirilib. Həmçinin bu ilin 9 ayında sənaye məhəlləsində 30 milyon manata yaxın məhsul istehsal olunub.



## AÇG 600 milyon ton həddini keçdi

### Bu yataqlar blokundan Azərbaycana indiyədək 57 milyard kubmetr səmt qazı da təhvil verilib

**"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi layihəsinin 30 illik salnaməsinə daha bir mühüm səhifə əlavə olundu. Bu yataqlar blokundan 600 milyonuncu ton neft hasil edildi.**

AÇG-nin operatoru kimi BP şirkəti bunu layihədəki tərəfdaşları - SOCAR, MOL, "İNPEX", "Exxon-Mobil", TPAO, "ITOCHU" və ONGC Videsh adından qürurla bəyan edib. Bildirilib ki, ümumilikdə hasil edilmiş 600 milyon ton neft Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri və Qərb İxrac Boru Kəməri (QİBK) vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Səngəçal terminalından birbaşa dünya bazarlarına nəql olunub.

SOCAR-ın prezidenti Rövşən Nəcəf bu barədə belə deyib: "Azəri-Çıraq-Günəşli" yataqlarından 600 milyon ton neft hasilatına nail olunması Azərbaycanın enerji sektorunun davamlı uğurunu təsdiqləyən əhəmiyyətli nailiyyətdir. Bu əlamətdar hadisə müasir Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin uzaqgörən rəhbərliyi sayəsində mümkün olmuşdur. Heydər Əliyevin müdrik siyasəti 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasına yol açaraq ölkəmizin enerji müstəqilliyinin və iqtisadi rifahının təməlini qoymuşdur. AÇG-nin 30 illik yubileyini qeyd edərkən SOCAR bu irsi davam etdirməklə enerji sektorunda yenilik və dayanıqlılığa töhfə verməyə davam edəcək".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bunu tarixi hadisə, AÇG yataqlarının 30-cu ilində əldə edilmiş növbəti nailiyyət adlandırıb:" Biz qürur duyuruq ki, ümumilikdə 600 milyon ton neft təhlükəsiz, etibarlı və ətraf mühit baxımından məsuliyyətli əməliyyatlar nəticəsində əldə olunub. Bu nailiyyət AÇG-nin ölkəyə və bütün maraqlı tərəflərə verdiyi misilsiz töhfənin gözəl ifadəsidir. Bu həmçinin AÇG-nin uğurunu fədakar əməkləri ilə təmin etmiş öz işinə sadiq minlərlə insanın, əsasən də azərbaycanlı mütəxəssislərin inanılmaz zəhmətinin təcəssümüdür. Möhtəşəm fəaliyyətlərinə və əməliyyatların təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsi öhdəliyinə davamlı olaraq sadiq qaldıqlarına görə bütün AÇG heyətinə, xüsusilə də əməliyyatlar qrupuna təşəkkürümü bildirirəm. BP-nin strategiyası bu günün enerji sistemlərinə, yəni AÇG kimi yataqların işlənməsinə və həm də gələcəyin enerji sisteminə sərmayə qoymaqdır. Operator kimi biz AÇG-nin qarşıdan gələn onilliklər ərzində də ölkəyə, Azərbaycan xalqına və tərəfdaşlarımıza töhfə verməsini təmin etmək üçün hökumət və SOCAR-la sıx işləmək öhdəliyimizə sadiqik".

Xatırladaq ki, AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) ilkin olaraq 1994-cü il sentyabrın 20-də imzalanıb. Həmin vaxtdan bəri AÇG-nin işlənməsinə təxminən 45 milyard dollar investisiya qoyulub. 2017-ci il sentyabrın 14-də isə AÇG üzrə dəyişdirilmiş və yenidən işlənmiş HPBS imzalanıb və bununla sazişin müddəti əsrin ortasınadək uzadılıb.

İlk neft "Çıraq"dan 1997-ci ilin noyabrında əldə edilib. Bu günə qədər AÇG yataqlarından təxminən 4,4 milyard barel neft hasil olunub. Gələcəkdə yeni texnologiyalara və qurğulara davamlı iri sərmayələrin qoyulması və layların neftvermə əmsalının maksimuma çatdırılması istiqamətində digər səylər nəticəsində bu dünya səviyyəli yataqlardan hasilatın növbəti onilliklər ərzində də davam etməsi gözlənilir.

Bu vaxta qədər AÇG-dən Azərbaycan dövlətinə ümumilikdə 57 milyard kubmetrdən çox səmt qazı da təhvil verilib.

Hazırda AÇG-də 9 platforma - 7 hasilat və 2 emal, qaz kompressiyası, suvurma və texnoloji platforma var. Bu platformalardan neft və səmt



qazı Bakı yaxınlığında yerləşən, dünyanın ən böyük neft və qaz terminallarından biri olan Səngəçal terminalına nəql edilir.

AÇG-də ən son işə salınmış hasilat platforması ACE platformasıdır. ACE texnoloji və rəqəmsal baxımdan BP-nin dünyada idarə etdiyi ən qabaqcıl platforma olaraq bu ilin aprel ayında hasilata başlayıb. Platformanın innovativ layihələndirilməsi insan əməyi tələb edən prosesləri avtomatlaşdırmağa imkan verməklə əməliyyatların daha təhlükəsiz və səmərəli aparılmasını təmin edir. ACE hazırda üç quyudan gündə təxminən 26 min barel neft hasil edir.

Bu ilin sentyabr ayında AÇG-dəki sərbəst təbii qaz (STQ) ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri irəlilətmək məqsədilə AÇG üzrə mövcud HPBS-yə yeni bir əlavənin imzalandığı elan edilib. Bu sənədə uyğun olaraq, SOCAR və AÇG tərəfdaşları hazırda STQ laylarının işlənməsi üçün növbəti fəaliyyətləri planlaşdırırlar. Bu işlərin bir hissəsi kimi iki prioritet laydan qaz hasil etmək məqsədilə ilkin quyu qazılır. Bu quyu olduqca əhəmiyyətlidir, çünki o, hasilat vasitəsilə qiymətləndirmə aparmağa da imkan verəcək və bunun əsasında gələcək işlənmə planlarını qurmaq mümkün olacaq.

***Flora SADIQLI, "Azərbaycan"***

## Bu günə qədər "Qaradağ" GES-dən şəbəkəyə 500 milyon kilovat-saatdan artıq təmiz enerji ötürülüb

**"Azərbaycanda "yaşıl enerji" sahəsində fəaliyyət göstərən şirkətlərin sayı artmaqdadır. Aparılan işlər nəticəsində böyükhəcmli enerji istehsalı müşahidə edilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çağırışına uyğun olaraq, 2018-ci ildən başlayaraq bu sahədə genişmiqyaslı layihələrin icrasına başlanılıb".**

Bu sözləri "Masdar" şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Murad Sadıxov "Sıfra doğru" şüarı ilə keçirilən Sənaye Təhlükəsizliyi Zirvəsində çıxışı zamanı deyib. AZƏRTAC xəbər verir ki, onun sözlərinə görə, Azərbaycan hökuməti bu günə qədər energetika haqqında qanun və torpaqların istifadəsinə dair qərarlarla yanaşı, digər sahələrdə də bərpaolunan enerji və təmiz enerji mənbələrinin potensialından istifadəni genişləndirmək məqsədilə bir sıra hüquqi islahatlar həyata keçirib.

"Azərbaycanın enerji potensialı çox yüksəkdir. 2021-ci ildə imzalanmış ilk pilot layihə çərçivəsində tikilən 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası 2023-cü il oktyabrın 26-dan etibarən fəaliyyətə başlayıb. Artıq bu günə qədər şəbəkəyə 500 milyon kilovat-saatdan artıq təmiz enerji ötürülüb. Bu enerji istehsalı nəticəsində 130 milyon kubmetrdən artıq qazın istifadəsinə qənaət edilib. Eyni zamanda 200 min tondan artıq karbon emissiyasının qarşısı alınıb. "Qaradağ" Günəş-Elektrik Stansiyası dövlət təminatı olmadan xarici investisiya hesabına icra edilən ilk layihədir ki, bu da Azərbaycanın investisiya cəlbediciliyini



artıran mühüm nailiyyətlərdən biridir", - deyə Murad Sadıxov bildirib.

"Masdar" rəsmisi diqqətə çatdırıb ki, 2022-ci ildə bərpaolunan enerji sahəsində daha iki böyük saziş imzalanıb: "Quruda 1 giqavat gücündə günəş və 1 giqavat gücündə külək, dənizdə isə ilkin olaraq 2 giqavat, növbəti mərhələdə 4 giqavat gücündə külək enerjisi və hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqavilələri imzalanıb. Bu məqsədlə COP29 çərçivəsində Energetika Nazirliyi ilə "Azərenerji" ASC arasında müvafiq müqavilələr imzalanıb. 760 meqavat gücündə 2 günəş-elektrik stansiyası olan - Biləsuvarda 445 meqavat və Neftçalada 315 meqavat gücündəki elektrik stansiyalarının tikintisinə başlanılıb və 2026-cı ilin ilk rübündə istifadəyə verilməsi planlaşdırılır. Bütün bu tədbirlər Azərbaycan hökumətinin bərpaolunan enerji sektorunun inkişafına verdiyi əhəmiyyətin göstəricisidir. Dövlət bu sahənin genişlənməsi üçün həm hüquqi bazanı təkmilləşdirmiş, həm də investisiyaların cəlb edilməsini təşviq etmişdir. Bu addımlar Azərbaycanın təmiz enerji mənbələrindən səmərəli istifadə etməsi və regionda "yaşıl enerji" mərkəzinə çevrilməsi istiqamətində atılmış mühüm addımlardır".

## Mədəniyyət naziri Kürdəmirdə vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin növbəti vətəndaş qəbulu dekabrın 14-də Kürdəmir şəhərində keçirilib.**

AZƏRTAC xəbər verir ki, qəbuldan əvvəl nazir Adil Kərimli və Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov şəhərin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər düzərək əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Kürdəmir rayon Yeni Azərbaycan Partiyasının inzibati binasında keçirilən qəbulda Kürdəmir, Ucar, Zərdab, Ağdaş, Yevlax, Göyçay rayonlarından və Mingəçevir şəhərindən olan vətəndaşların müraciətləri dinlənilib.

Vətəndaşlar əsasən işlə təminolunma, mədəniyyət sahəsi ilə bağlı təkliflər, təşəbbüslər, əməyin qiymətləndirilməsi və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Mədəniyyət naziri hər bir müraciət üzrə məsələlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Qəbulda şəhid ailələri və qazilərin qeyd etdikləri məsələlərə diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə qeydiyyata alınaraq nəzarətə götürülüb.

## Azərbaycan nefti bahalaşıb

**"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,41 dollar və ya 0,54 faiz artaraq 76,56 dollar olub.**

AZƏRTAC xəbər verir ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

Elm xadimləri

# Əsri qabaqlayan alimin xatirəsinə

**Ekologiya və ətraf mühit haqqında biliklərin yaranma tarixi qədim olsa da, həmin sahə elmlərin və bəşəriyyətin tarixi kimi mürəkkəb, çətin inkişaf yolu keçmişdir. Hər bir tarixi mərhələdə ekologiya və ətraf mühit haqqında baxışların tarixin inkişaf mərhələlərindən boylanması, həyatıdərkə, idarəetməyə, elmlər sisteminə və sairə müsbət təsir göstərmişdir.**

Həyatın keçməkeşli anları, elmə və mədəniyyətlərə, idarəetməyə vaxtaşırı ziyanlar vurduğu kimi göstərilən sahələrin də süqutu ölçüyəgəlməz dərəcədə elm sahələrinə böyük zərbə olmuşdur. Ekologiya və ətraf mühit sahəsində oyanış Azərbaycanda 1970-ci illərdən ağsaqqal alim, akademik Həsən Əliyevin səyi və zəhməti nəticəsində yaranmışdır.

Ekologiya və ətraf mühitə dair oyanışı, fundamental elm sahələrinə yiyələnən, böyük təcrübəyə malik, İkinci Dünya müharibəsinin od-alovlarından, repressiyadan keçən, eyni zamanda güclü vətən sevgisi olan insanlar yarada bilərdi. Öz səyi ilə belə ağır, lakin çox şərəfli işi üzərinə götürən akademik Həsən Əliyev olmuşdur.

Onun əmək fəaliyyətinin birinci dövründə (1930-1950) Azərbaycanın təbii şəraitinin tədqiqat sahələri istiqamətləndirilmişdir. Eləcə də meşələrin kənd təsərrüfatında məhsuldarlığa təsiri ideyaları, meşə-meliorasiyanın yaradılması, zonalar üçün ağac növlərinin seçilməsi, nəhayət, Meşəmeliorasiya İnstitutunun yaradılması ilə həyata keçirilmişdir. Burada torpaq eroziyası üzrə tədqiqatlar da aparılırdı.

Həsən Əliyev fəaliyyətinin ikinci mərhələsində (1950-1970-ci illərdə) elmi tədqiqatlarını davam etdirməklə məharətli elm təşkilatçısı kimi də fəaliyyət göstərmişdir. Alimin Meşə Təsərrüfatı və Aqromeliorasiya, Torpaqşünaslıq və Aqrokimya institutlarının yaradılmasında və inkişafında böyük əməyi olmuşdur. Onun təşəbbüsü ilə 1955-ci ildə keçmiş SSRİ Elmlər Akademiyası sistemində ilk dəfə Azərbaycan Respublikası Elmlər Akademiyası Rəyasət Heyəti yanında Təbiəti mühafizə şöbəsi yaradılmışdır. Coğrafiya İnstitutuna rəhbərlik etdiyi dövrdə bir neçə şöbə, eləcə də Təbiəti mühafizə şöbəsi təşkil edilmiş, həmin istiqamətdə də yeni kompleks elmi-tədqiqat işləri aparılmağa başlamışdır.

Fəaliyyətinin üçüncü mərhələsində (1970-1990) Azərbaycanda ekoloji problemlərin və təbiəti mühafizə məsələlərinin kompleks tədqiqinin əsaslarının yaradılmasına başlamışdır. Azərbaycan təbiətinin mühafizəsində meşələrin salınması və qorunmasına, meşə-meliorasiya işlərinə xüsusi önəm vermişdir. Həmin dövrdə 14 qoruq yaradılmışdır. Onun da 7-si Həsən Əliyevin səyi, təklifi



və təkidi ilə həyata keçirilmişdir. Azərbaycan təbiətinin mühafizəsində meşələrin salınmasına və qorunmasına, meşə-meliorasiya işlərinə xüsusi önəm verilmişdir.

Akademik Həsən Əliyevin təbiətlə bağlı yaratdığı elmi məktəblərdə onun rəhbərliyi ilə 40-a qədər elmlər namizədi, elmlər doktoru əzmlə fəaliyyət göstərmiş və uzun müddət direktoru olduğu Coğrafiya İnstitutunun bütün şöbələrinin elmi fəaliyyəti ekoloji məsələlərlə əlaqələndirilmişdir.

AMEA sistemində ilk Təbiəti mühafizə şöbəsi Coğrafiya İnstitutunun nəzdində yaradılmış, ilk ekoloq-təbiətşünas alimlər məhz həmin elmi-tədqiqat institutunda hazırlanmışdır.

Azərbaycanda ekologiya və ətraf mühiti mühafizə sahələrində eimi tədqiqatların, tətbiqi sahələrin, kadr hazırlığının geniş miqyasda dövlət səviyyəsində idarə edilməsinə 1970-ci illərdən başlanmışdır. Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi böyük nəticələrlə müşayiət olunmuşdur. Təkcə onu demək kifayətdir ki, keçən dövrlərdə (1970-1980; 1992-2002-ci illərdə) ekologiya və ətraf mühiti mühafizə ilə əlaqədar bir çox qanunlar qəbul edilmiş, 30-a yaxın fərman və hüquqi sənədlər imzalanmışdır.

Akademik Həsən Əliyev BDU-da Ekoloji təmayüllü kafedranın açılması təklifini vermişdi. Təhsil Nazirliyinin ovaxtkı rəhbərliyi, eləcə də BDU-nun rektorluğu 1980-ci ildə Geologiya-coğrafiya fakültəsində Ətraf mühitin mühafizəsi (ƏMM) və təbii ehtiyatlardan səmərəli istifadə kafedrasının yaranmasına çalışmış, həmin sahədə kadr hazırlığına başlanılmışdır. Kafedraya professor F.Hacıyev rəhbərlik etmişdir. Bir ildən sonra yüksək vəzifəyə irəli çəkilməsi ilə əlaqədar kafedraya rəhbərlik Ş.Göyçayskiyə həvalə olunmuşdur. Kafedra əməkdaşları ətraf mühiti mühafizə sahəsində, elmin və tədrisin təşkilində əzmlə çalışmışlar. Qısa vaxt ərzində ekoloji təmayüllü kafedra respublikada təhsil sistemində elmi-metodiki mərkəz, Zaqafqaziya respublikaları ali məktəbləri arasında regional mərkəz kimi də fəaliyyət göstərmişdir.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə respublika rəhbərliyinə qayıtdıqdan sonra ekologiya və ƏMM məsələlərinin həyata keçirilməsinə də xüsusi diqqət göstərirdi. Eyni zamanda bu məsələlərin sosial-iqtisadi islahatlar dövründə həyata keçirilməsi təhsil sisteminin yeniləşdirilməsini tələb edirdi. 1999-cu ildə ölkədə təhsil islahatlarına başlanıldı, 2003-cü ildə ekoloji təhsil və ekoloji maarifləndirmə sahəsi ilə əlaqədar dövlət başçısı fərmanlar imzalamışdı. Bütün bunlar ümumi kadr hazırlığı, eləcə də ekologiya və ətraf mühiti mühafizə sahəsində mühüm əhəmiyyət kəsb edirdi. 2001-ci ildə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yeni strukturda yaradılması haqqında fərman imzalandı. Tədricən "Əsrin kontaktı"nın həyata keçirilməsi ilə neft və qaz kəmərlərinin çəkilməsi və digər ekoloji təmayüllü layihələrin həyata keçirilməsi, təbii resurslardan səmərəli istifadə Azərbaycan alimlərinin fəaliyyətini daha da stimullaşdırdı.

BDU-nun Ətraf mühiti mühafizə kafedrası əməkdaşları yüksəkixtisaslı kadr hazırlamaqla yanaşı, Azərbaycan Respublikası Dövlət Təbiəti Mühafizə Komitəsinin, Dövlət Şəhərsalma və Arxitektura, Dövlət Plan komitələrinin layihə institutları və digərləri ilə birlikdə təsərrüfat müqaviləli işlərdə və dövlət əhəmiyyətli proqramların yerinə yetirilməsində iştirak edirdilər.

Azərbaycanda təbii resursların qiymətləndirilməsi və onlardan istifadənin genişləndirilməsi ilə əlaqədar dövlət səviyyəsində ətraf mühiti mühafizə və təbiəti bərpa məsələlərinə də ehtiyac yaranmışdır. Eyni zamanda Azərbaycan Respublikasında Regionların sosial-iqtisadi inkişafına dair Prezident İlham Əliyev tərəfindən təsdiqlənən dövlət proqramlarının həyata keçirilməsinə, insan kapitalına önəm verilməsinə, dayanıqlı inkişafın əsas prioritet kimi qəbul edilməsinə və bu sahədəki fəaliyyətin genişləndiriləməsinə xüsusi önəm verilmişdir. Ekologiya və ətraf mühiti mühafizə sahəsində fərmanların verilməsi, strateji əhəmiyyətli fəaliyyət Prezident İlham Əliyevin ugurlu ekoloji siyasəti ilə ümumi fəaliyyəti stimullaşdırmışdır.

Müasir ekoloji anlayışların elmi və praktiki məzmunu yeni metodoloji yanaşma tələb edir. Ətraf mühiti mühafizə kafedrasının əməkdaşları bu sahədə də fəallıq göstərmişlər. Onların sırasında "Ekoloji tutum" konsepsiyasının Azərbaycan şəraitinə uyğunlaşdırılması; torpaqların təsərrüfat təyinatında ətraf mühitin nəzərə alınması; əkin sahələrindən ildə iki-üç dəfə məhsul götürülməsi və sairə kimi mütərəqqi ideyalar ekoloji tələblərə uyğun qiymətləndirilirdi. Ətraf mühiti mühafizə kafedrasının əməkdaşları son dövrə qədər bu sahə üzrə tədqiqat planına müvafiq olaraq müvafiq mövzular, təsərrüfat müqaviləli elmi-tədqiqat işləri, kompleks proqramlar və qrantlar yerinə yetirmişlər.

Prezident İlham Əliyev 2010-cu ili "Ekologiya ili" elan etdi. Həmin ildə BDU-da Ekologiya və torpaqşünaslıq fakültəsi təşkil edildi. Ekologiya və torpaqşünaslıq fakültəsinin yaradılması ilə Ətraf mühiti mühafizə, təbii ehtiyatlardan səmərəli istifadə kafedrası Coğrafi ekologiya kafedrası adlandırılaraq Ekoloji kimya, Bioekologiya, Torpaqşünaslıq, Yer quruluşu və torpaq kadastrı kafedraları ilə birlikdə fəaliyyət göstərir. Bu kafedralar ekologiyanın böyük hissəsini əhatə etməklə həmin sahədə kadr hazırlığının mühüm istiqaməti kimi formalaşdırılmışdır. Ekologiya elminin sistemli inkişaf etdirilməsi və bu sahədə kadr hazırlığının müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində Ekologiya və torpaqşünaslıq fakültəsində və digər fakültələrdə qlobal və kosmik ekologiya, təkamül ekologiyası, struktur ekologiya, nanoekologiya, tətbiqi ekologiya və sair sahələrə xüsusi önəm verilməkdədir.

Azərbaycan ekologiya və ətraf mühiti mühafizə sahəsində fəaliyyətə başlayan ilk ölkələrdən olmuş, hazırda da həmin sahədə öndə gedir. Böyük alim, akademik Həsən Əliyevin ruhu şaddır ki, BMT-nin iqlim dəyişiklikləri üzrə ölkələrarası çərçivə konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış qurumun növbəti 29-cu konfransı Bakıda keçirilmişdir. Bu, Azərbaycan Respublikası rəhbərliyinin, idarəedici qurumların, elm və təhsil sahələrinin işgüzar fəaliyyətinin 1970-ci illərdən Azərbaycanda başlanan və daha sonra Prezident İlham Əliyevin ekoloji sahədə fundamental siyasətinin nəticəsidir. COP29 əvvəlkilərdən fərqli olaraq daha çox əhatəli, konstruktiv və işgüzar keçmişdir.

Konfransın funksiyası yalnız havanın karbon emissiyalarından təmizlənməsi və iqlimin sağlamlaşdırılmasından ibarət deyildir. Konfrans dünya xalqlarına, aparıcı qüvvələrə iqlimin planetdə, onun regionlarında mühit yaratma əhəmiyyətini, təbiətin və bəşəriyyətin təkamülləşməsində mühüm aparıcı rola malik olmasını xatırladır. Ən önəmli cəhətlərdən biri də ondan ibarətdir ki, COP29-un keçirilməsi bir daha inam yaratdı ki, ekoloji mədəniyyətlər indiyə qədər yaranan və fəaliyyətdə olan mədəniyyətlərdən öndə getməlidir.

*Şövqi GÖYÇAYSKİ,*
*Bakı Dövlət Universitetinin professoru,*

*Sevda İSKƏNDƏROVA,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

## Gürcüstan yeni Prezidentini seçdi

**Hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyasının namizədi, parlamentin keçmiş üzvü Mixeil Kavelaşvili Gürcüstanın altıncı prezidenti seçilib.**



Bunu parlamentin saytında canlı yayımlanan səslərin hesablanmasının nəticələri sübut edir.

Gürcüstanda ilk dəfə olaraq prezident ümumxalq səsverməsi ilə deyil, 300 seçicidən ibarət seçki kollegiyasının üzvləri tərəfindən seçilib. Onun tərkibinə Gürcüstan parlamentinin 150 deputatı, Acarıstan Ali Sovetinin 21 deputatı, Abxaziya Ali Sovetinin 20 nümayəndəsi və ölkənin müxtəlif bölgələrinin rayon sakrebulo-bələdiyyə orqanlarının 109 deputatı daxildir. Seçkilər parlamentin binasında keçirilib.

Prezidentliyə yeganə namizəd hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyasının namizədi, sabiq parlament üzvü və keçmiş futbolçu, 53 yaşlı Mixeil Kavelaşvili olub.

İlk turda qalib gəlmək üçün o, səslərin üçdə ikisini, yəni 200 səs toplamalı idi.

Mərkəzi Seçki Komissiyasının sədri Georgi Kalandarişvili seçkilərin nəticələri barədə məlumat verib. O bildirib ki, 224 seçici M.Kavelaşvilinin lehinə səs verib.

MSK sədrinin sözlərinə görə, səsvermədə 225 üzv iştirak edib, bülletenlərdən 1-i etibarsız hesab edilib.

Hakim partiya dekabrın 29-da yeni prezidentin andiçmə mərasimini keçirməyi planlaşdırır. Dövlət başçısı bu vəzifəni 5 il müddətinə icra edəcək.

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Mixeil Kavelaşviliyə təbrik məktubu ünvanlayıb. Dövlətimizin başçısı məktubunda Azərbaycan-Gürcüstan əlaqələrinin tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış, bir-birinə daim dəstək olmuş xalqlarımızın iradəsindən qaynaqlandığını bildirmişdir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Yeni il ərəfəsində şəhərimiz daha da gözəlləşir

**Keçirilən bayramlar, qeyd olunan əlamətdar günlər həmişə insanlarda xoş ovqat yaradır, onları daha da yaxşı yaşamağa ruhlandırır. Böyük coşqu ilə qarşılanan və yüksək əhvali-ruhiyyə ilə qeyd olunan bayramların və əlamətdar günlərin hərəsi yaddaşlarda bir cür qalır, həmişə xoş təəssüratlarla xatırlanır.**

Qarşıdan əlamətdar bayramlarımız olan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il gəlir. Bu bayramlar gəlişi ilə hamımıza sevinc bəxş edir, həyatımıza, ömrümüzə yeni rəng qatır. İlimiz yenilənir, günümüz təzələnir, yaşımız bir il artır.

Hər birimiz üçün əlamətdar olan bu bayramların yüksək səviyyədə keçirilməsi üçün artıq Bakı şəhərində müvafiq hazırlıq tədbirləri görülməyə başlanılıb. Bu işlərə ən müasir texniki vasitələr və mütəxəssislər cəlb olunub. Aparılan hazırlıq işlərindən görünür ki, bayram günlərində şəhər sakinlərini bir-birindən maraqlı şənliklər gözləyir.

Gündən-günə gözəlləşən, abadlaşan şəhərimizin parklarında, meydan və küçələrində, ümumiyyətlə, hər yerində işıqlı çilçıraqlar, şam ağacları və digər dekorativ bəzəklər quraşdırılır. Yeni il bayramının atributları olan Şaxta baba və Qar qızın simvolları paytaxt sakinlərini qarşılamağa hazırlaşır. Yaxınlığından keçəndə həmişə onların üzündən sevinc süzüldüyünü görürük.

Bayramların gəlişinə həmişə ən çox sevinən uşaqlar olur. Uşaqların sevinci isə elə böyüklərin sevinci deməkdir.

Görülən hazırlıq işləri ondan xəbər verir ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə və Yeni il bayramında paytaxt sakinlərini Şaxta baba və Qar qızla, həmçinin müxtəlif animasiya qəhrəmanları ilə şən zarafatlar, mehriban ünsiyyət gözləyir. Bu da insanlara xoş ovqat aşılayacaq. Yüksək səviyyədə aparılan hazırlıq işləri Bakının gözəlliyinə yeni rəng, yeni gözəllik qatacaq. Deməli, bayram günlərində şəhərimiz daha da gözəl görünəcək.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarının keçirilməsi üçün şəhərin müxtəlif yerlərində hazırlıq işləri görən insanlar da yüksək əhvali-ruhiyyədədirlər. Onlar yaxşı bilirlər ki, gördükləri işlər paytaxt sakinlərinə və şəhərimizin qonaqlarına sevinc gətirəcək, insanlara xoş ovqat bəxş edəcək. Həmin günlərdə dünya sevincə bürünəcək, insanlar həyatlarının ən xoşbəxt anlarını yaşayacaqlar.

*Vahid MƏHƏRRƏMOV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*













◆ Vətən olan oğullar!

# Surxayın zəfər yolu

**Hansısa bir səbəbdən baş vermiş müharibələrin qəhrəmanları olur. Tarix onları əbədi olaraq öz səhifələrində qoruyub saxlayır. Bəzən müharibələr bu qəhrəmanlarla tanınır, xatırlanır. İkinci Qarabağ müharibəsində zabit və əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və qəhrəmanlıqlar göstərdilər. Adı həmişə hörmətlə çəkilən bu cəsur oğullar müharibənin qəhrəmanları oldular. Onlardan biri də Cəbrayıldan Şuşayadək şərəfli döyüş yolu keçmiş kapitan Surxay Əbdül Noçuyevdir.**



Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad edilməsi zamanı göstərdiyi fədakarlığa, igidliyə görə kapitan Surxay Əbdül oğlu Noçuyevə Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Cəsur zabit göstərdiyi igidliyə görə həm də "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

## Surxay Aprel döyüşlərində də böyük cəsarət göstərib

Surxay sadə, sadə olduğu qədər də şərəfli bir ömür yolu keçib. Öyrənirik ki, o, 1988-ci il dekabrın 19-da Zəngilan rayonunun Məmmədbəyli kəndində dünyaya göz açıb. 1995-2003-cü illərdə Bakı şəhərindəki Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyada təhsil alıb. Gələcəkdə zabit olmaq arzusu ilə 2003-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Üç il ərzində burada gündəlik dərslərlə yanaşı, hərbi biliklərə, silahların sirlərinə yiyələnib. 2006-cı ildə imtahanlarda yüksək nəticələr göstərərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev Hərbi İnstitutu) qəbul olub, bu ona hərbi təhsilini artırmaq üçün geniş imkanlar açıb. 2011-ci ildə gənc zabit taqım komandiri kimi cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmətə başlayıb. Gələcəyin qəhrəmanı Surxay Noçuyev 2016-cı ildə ordumuzun uğurları ilə başa çatmış Aprel döyüşlərində iştirak edib və böyük hünər göstərib.

Vətəni, torpağı canından da əziz tutan zabit Surxay Noçuyev 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində həmişə ön sıralarda vuruşub. Onun döyüş yolu Cəbrayıldan başlayıb Füzulidən, qoynunda doğulduğu Zəngilandan, Qubadlıdan, Xocavənddən və Şuşadan keçib. Əks-hücum əməliyyatlarında fəal iştirak edən gənc zabit düşmənin çoxsaylı canlı qüvvəsini və döyüş texnikalarını məhv edib. Tabor komandiri kimi üzərinə düşən döyüş tapşırıqlarını cəsarətlə yerinə yetirib. Son döyüşü noyabr ayının 9-da Şuşa şəhəri ətrafında olub, döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.

## Doğmalarına iki övladı yadigar qalıb: Uğur və Fidan



Daim ehtiramla xatırlanan cəsur zabit Surxay Noçuyevin Vətən uğrunda döyüşdüyü günlərdə qız övladı dünyaya gəlir. Atasının arzusuna uyğun olaraq körpənin adını Fidan qoyurlar. Surxaydan iki balası yadigar qalıb: Uğur və Fidan. Onlar atalarının qəhrəmanlığı ilə fəxr edib öyünürlər.

Həyat insanları qəhrəmanlığa bir günün, bir anın içində hazırlamır. Bunun üçün illərin keçməsi və əlverişli mühitin yaranması gərəkdir. Təkcə qəhrəman kimi yox, elə insanın cəmiyyətdə bir şəxsiyyət kimi böyüməsində ailənin rolu əvəzsizdir. Ailədən sonra isə təhsil, həmçinin başqa amillər insanın, cəmiyyət, dövlət və Vətən üçün gərəkli bir şəxsiyyət kimi forma-



laşmasına müsbət təsir göstərir. Surxay Noçuyev yaşadığı qısa ömründə bütün bu mərhələlərdən uğurla keçərək Vətən, dövlət və cəmiyyət üçün layiqli övlad kimi böyüyüb.

Vətən müharibəsinin qəhrəmanı cəsur zabit Surxayın 32 illik şərəf dolu ömür yolunu səhifə-səhifə vərəqləmək üçün atası Əbdül Noçuyevlə görüşüb söhbət etdik. O dedi: "Elmə, biliyə marağı olduğuna görə Surxay orta məktəbdə dərslərini yaxşı oxuyur, əla qiymətlər alırdı. Bu biliklə o, istənilən ali məktəbə qəbul ola bilərdi. Amma Surxay hərbi sahəni seçdi, zabit olmağı qərara aldı. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib zabit rütbəsi alanda onun sevinci yerə-göyə sığmırdı. Surxay böyük Zəfərimizin ilk qığılcımı olan Aprel döyüşlərinin də iştirakçısı olmuşdu. Dörd gün davam edən gərgin döyüşlərdə kifayət qədər təcrübə qazanmışdı. Bu döyüş həm də ordumuzun gücünü düşmənə göstərmişdi. Surxay həmişə söhbətlərində ordumuzun daim artan gücündən, qüdrətindən danışardı. Deyərdi ki, biz gec-tez belə güclü ordu ilə torpaqlarımızı erməni işğalçılarından azad edəcəyik. Zaman keçdi və hər şey oğlumun dediyi kimi oldu. Gündən-günə güclənən Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında 44 gün ərzində Ermənistan silahlı qüvvələrini diz çökdürərək 30 ilə yaxın işğalda qalmış torpaqlarımızı qəsbkarlardan azad etdi. Surxay da digər qəhrəmanlar kimi Zəfərlə başa çatan bu döyüşlərin ön sıralarında getdi. Müdafiəsinə qalxdığı torpaq uğrunda şirin canını əsirgəmədi..."

## Müharibə xəbəri gəldi

Qəhrəmanın atası bu yerdə susub fikrə gedəndən sonra Surxayla olan son görüşünü xatırladı: "Müharibə başlamazdan əvvəl, sentyabrın 2-də Surxay ailəsini şəhərə gətirmişdi. Özü də üç-dörd gün qaldı. Uşaqları gətirib bizim yanımızda qoydu. Kim bilir, bəlkə də ermənilərin törətdiyi təxribatlardan müharibənin başlayacağını hiss etmişdi. Bu barədə ondan soruşanda susub heç nə demədi. Ümumiyyətlə, müharibə barədə ondan nəsə soruşanda söhbətin səmtini başqa istiqamətə dəyişib deyirdi ki, narahat olmayın, əgər müharibə başlasa, düşmən qarşımızda dayana bilməyəcək. Cəbhə bölgəsinə qayıdanda özüm onu yola saldım. Sağollaşıb ayrılarkən ata-bala qucaqlaşıb öpüşdük. Əvvəllər onu yola salanda Surxay məni bir dəfə öpərdi. Amma bu dəfə oğlum məni bir neçə dəfə öpüb dedi ki, ata, özündən muğayat ol. Baxdım ki, bu görüş əvvəlki görüşlərə oxşamır. Beləcə, ata-bala kövrək hisslərin təsiri altında sağollaşdıq. Həmin anlarda heç ağlıma gəlməzdi ki, bu, mənim övladımla son görüşüm olacaq..."

Cəsur zabitin atası sözünə davam edərək deyir ki, cəbhə bölgəsinə qayıdandan iki-üç gün sonra Surxay zəng vurub dedi ki, üstündə jetonum olan boyunbağım evdə qalıb. Baxsanız görəcəksiniz, üzərində adım da yazılıb. O, bir növ mənim kimliyimdir. Onu Beyləqan istiqamətinə gələn taksilərdən biri ilə göndərin. Elə həmin gün onun dediyini yerinə yetirdim.

Surxayın müharibənin başladığını bildirən qəfil zəngini Əbdül Noçuyev indiki kimi xatırlayır: "27 sentyabr səhər saat 6-da Surxaydan zəng gəldi. Bu qəfil zəng məni silkələdi. Ümumiyyətlə, vaxtsız vurulan zənglərdən çox narahat oluram. Telefonu götürüb çölə çıxdım ki, uşaqlar səsimə yaxudan oyanmasın. Salamlaşandan sonra dedi ki, gözlədiyimiz gün gəlib çatdı. Soruşdum ki, nə olub? Çox təmkinlə cavab verdi ki, artıq Qarabağ uğrunda müharibə başlayıb və biz döyüşlərdə ermənilərin dərsini verəcəyik. Dedim ki, bala, mən sənin bacarığına da, ordumuzun gücünə də inanıram. Sizə uğurlar, zəfərlər arzulayıram. Özündən muğayat ol". Dedi ki, narahat olma, gücümüzlə, qəhrəmanlığımızla qısa müddətdə düşməni diz çökdürüb torpaqlarımızı işğaldan azad edəcəyik. Surxayın təskinlik dolu sözlərindən xeyli rahatlandım, eynim açıldı, ürəyimə dolan şübhələr dağıldı. Səsimi eşidən həyat yoldaşım Mehriban xanım, balaca oğlum Əfqan da həyətə çıxdılar. Həyəcanla məndən nə olduğunu soruşdular. Heç nəyi onlardan gizlətmədim, asta səslə müharibənin başladığını bildirdim.

## Ata Şuşanı azad etmiş, Zəfər qazanmış oğlunu öpüb bağrına basmağa hazırlaşırdı

Surxayın döyüşlərə atıldığı gün - 27 sentyabr 2020-ci ildə onun qız övladı dünyaya göz açır. Qəhrəmanın atası həmin xoş günü xatırlayaraq dedi ki, oğlumun səhər-səhər müharibə xəbəri verməsi bizi bir az narahat etsə də, axşamayaxın eşitdiyimiz xəbərə sevindik. Surxayın qız övladı dünyaya gəldi. Uşağın müharibənin başladığı gün doğulması da xoş bir təsadüf idi. Surxay mənə əvvəlcədən demişdi ki, dünyaya göz açacaq qızımın adını Fidan qoymuşam. Yəqin ki, sən də buna etiraz etməzsən. Mən bu məsələyə qarışmadığımı bildirdim. Dedim ki, Surxay, övlad sənindir. Adını nə istəsən qoya bilərsən. Oğlun doğulanda adını biz



Uğur qoymuşduq. Fikiləşmişdik ki, qoy ilk nəvənin dünyaya gəlişi uğurlu-xeyirli olsun.

Fidanın qırxı çıxan gün isə Surxay düşmən gülləsinə tuş gəlmişdi. Döyüşlərə yollanandan sonra Surxay ara-sıra zəng vurur, qazandıqları zəfərlərdən xəbər verir, azad etdikləri kənd və şəhərlərin adlarını söyləyirdi. Danışanda səsində heç bir həyəcan hiss olunmurdu. Arada zəngi gəlməyəndə güman edirdik ki, yəqin vuruşduğu yerdə şəbəkə zəifdi, ya da heç onun danışmağa vaxtı yoxdu. Artıq Ermənistan ağ bayraq qaldırıb təslim olmuş, döyüşlər dayanmışdı. Amma Surxaydan zəng gəlmirdi.

Xalq Zəfər bayramını qeyd etmək üçün şəhərin küçələrinə axışırdı. Biz də camaata qoşulub Surxayın da qəhrəmanlıq göstərdiyi müharibənin Zəfərini qeyd edirdik. Nə qədər şənlənib gülsək də, içimizdə Surxaydan nigarançılıq dolaşırdı. Onunla sonuncu dəfə noyabrın 1-də danışmışdıq. İmkanımız çatan yerlərlə əlaqə saxlasaq da, ondan xəbər tuta bilmirdik. Bu bizi üzüb əldən salırdı. Bacım oğlu, məşhur kamança ustası Elnur Əhmədova zəng vurub dedim ki, bəlkə sən dost-tanışlarının vasitəsilə Surxaydan bir xəbər alasan. Sonralar öyrəndim ki, Elnur dostlarının vasitəsilə Füzuli istiqamətində hərbi prokurorluqda xidmət edən bir zabitlə əlaqə yaradaraq Surxayın şəhid olduğunu öyrənib. Amma bunu mənə deməyə dili gəlməyib. Böyük qardaşım Sərxeyilə məlumat verir. Sonra bütün qohumlar onlara yığışıb bu bəd xəbəri bizə necə çatdırmağı götür-qoy ediblər.

Surxayın atası köks ötürəndən sonra sözünə davam etdi: "Noyabrın 11-də axşam gördük ki, bacımgil, qohumlar bizə gəlirlər. Baxdıq ki, bu gəliş əvvəlki gəlişlərə oxşamır. Çünki onların çöhrələrindən kədər yağırdı. Doğmalarımızdan Surxayın şəhid olduğunu eşitdik. Bu kədərli xəbər bizi sarsıtdı, dünya başımıza fırlandı. Mən Şuşanı erməni işğalçılarından azad etmiş, düşmən üzərində Zəfər qazanmış övladımı öpüb bağrıma basmağa hazırlaşırdım. Övlad itirmək ağır, dözülməz dərddir. Yeganə təskinliyimiz o idi ki, Surxay Vətənin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. Təəssüflər olsun ki, Surxay adını qoyduğu Fidan balasını görə bilmədi.

## Qəhrəman oğulun atası olmaq çox qürurvericidir

Noyabrın 11-i də Əbdül Noçuyevin yaddaşında kədərli bir gün kimi qalıb. "Ata kimi çox kədərli bir gün yaşayırdım. Bir gözümüz Zəfər sevincinə gülür, bir gözümüz isə oğul itkisinə ağlayırdı. Xalqımızın sevinc içində qeyd etdiyi bu Zəfər bayramında oğlum Surxayın da qəhrəmanlıq payı var idi. Noyabrın 11-də axşam Surxayın cənazəsini evə gətirdilər. Ertəsi gün - oğlumu İkinci Səhidlər xiyabanında torpağa tapşırdıq. Həmin gün Zəngilan və Suraxanı Rayon İcra hakimiyyətlərindən də nümayəndələr evimizə gəldilər, dərdimizə şərik oldular. Surxay dəfn olunanda oğlu Uğurun dörd yaşı var idi, qızı Fidanın isə qırxı yenicə çıxmışdı. Bizimlə bərabər Surxayın həyat yoldaşı Lalə xanımın da yaşadıqları çox ağır idi", - qəhrəmanın atası bildirdi. O, sözünə davam edərək dedi ki, həm dəfndə, həm də dəfndən sonra zabit yoldaşları gəlib dərdimizə şərik olur, dərin hüznlə başsağlığı verirdilər. Onlar Surxayın döyüşlərdə göstərdiyi igidlikdən, qəhrəmanlıqdan ürəkdolusu danışırdılar. Deyirdilər ki, onun qəhrəmanlığı komandanlıq tərəfindən layiqincə qiymətləndiriləcək. Doğrudan da, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 9 dekabr 2020-ci ildə Surxaya "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı verildi. Oğlumun igidliyinə verilən layiqli qiymət ailəmizi çox sevindirdi, bizə xeyli təsəlli oldu.

Əbdül Noçuyev 2021-ci il oktaybrın 20-də - Zəngilan Şəhəri Günündə Azərbaycan Prezidenti İlham Əliyevlə, Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə görüşüb. Qəhrəmanın atası hələ də o günün xoş təəssüratları ilə yaşayır: "İlk dəfə idi ki, Prezidentlə görüşürdüm. Əvvəlcə bir az həyəcanlı idim. Bu da səbəbsiz deyildi. Axı mən Azərbaycan Prezidenti, böyük şəxsiyyət İlham Əliyevlə görüşəcəkdim. Amma dövlət başçımızla görüşəndə həyəcanım bir an içində çəkildi. Çünki Prezident bizimlə çox səmimi ünsiyyət yaratdı. Bu səmimilik bir an içində bizim həyəcanımızı qəlbimizdən silib apardı. Dövlət başçımız bizimlə çox səmimi söhbət elədi. İki dəfə də kövrəldi. Bir dəfə mən danışanda, ikinci dəfə də məni qucaqlayanda. Bu kövrəlməkdə mən Prezidentimizin şəhid ailələrinə necə dərin hörmət və ehtiramını gördüm".

## Ata oğlunun şəhid olduğu torpağa ayaq basa bilmədi...



Əbdül kişi 26 iyun 2022-ci ildə oğlunun uğrunda vuruşduğu və şəhid olduğu Şuşa şəhərinə gedib. Həmin səfəri xatırlayaraq dedi ki, oğlumun uğrunda şəhid olduğu o müqəddəs torpağı ziyarət etmək istəyirdim. Bu istəyim həyata keçdi. Yay günlərinin birində Şuşaya getdim. Qarabağın ruhumuzu oxşayan gözəl mənzərələri göz işlədikcə uzanıb gedirdi. Daşaltı kəndini keçəndən sonra qəlbimi sözə yatmayan, fikrə sığmayan çox qəribə hisslər bürüdü. Bizi müşayiət edən polkovnik Firuz Xəlilov Surxayın şəhid olduğu yeri uzaqdan da olsa mənə göstərdi. Təəssüf ki, həmin əraziyə çox yaxınlaşmaq mümkün deyildi. Bəlkə də belə daha yaxşı idi. Sözün açığı deyim ki, mən oğlumun şəhid olduğu yerin torpağına ayaq basıb tapdalamaq istəmirdim. Qorxurdum ki, bundan oğlumun ruhu narahat olar. Övladımın qanının töküldüyü yerə baxanda sanki bir anlıq Surxayın səsini eşitdim. Bu səs heç vaxt qulaqlarımdan getməyəcək.

## Surxay döyüşlərdə gələcək nəsillərə nümunə olacaq qəhrəmanlıq göstərdi

Yolumuzu Vətən Müharibəsi Qəhrəmanı Surxay Nocuyevin səkkiz il təhsil aldığı Səttar Bəhlulzadə adına Xarici Dillər Gimnaziyasından salıb bir vaxtlar ona dərs demiş müəllimlərlə görüşdük. İlk həmsöhbətimiz Surxayın ibtidai sinif müəllimi olmuş Şəcahan Ramazanova oldu. Qəhrəmanı xatırlayan müəllim dedi ki, üç il Surxaya dərs demişəm, ona bilikləri öyrətmişəm. Həmin günlər, həmin anlar həmişə gözlərim qarşısında canlı olaraq qalıb. Üstündən illər keçməsinə baxmayaraq, hər dəfə sinfə girəndə elə zənn edirəm ki, yenə də Surxayı görəcəm. Onun yaşıl gözlərindən kamillik, müdriklik və vətənpərvərlik yağırdı. Surxayın iti, ağıllı, zəkalı baxışları sanki ətrafdakılara "mən gələcəkdə qəhrəman olacam", - deyirdi. Şəhid olduğunu eşidəndə çox kədərləndik. Surxay kimi qəhrəmanlar heç vaxt unudulmayacaq. Məktəbdə oxuduğu illərdə o bizim qarşımızda ayaq üstə dayanardı, şəhid olandan sonra isə biz onun məzarı önündə ayaq üstə dayanıb qəhrəmanlığı, igidliyi qarşısında baş əyirik.

Almaz Abbasova qəhrəmanın təsviri sənət müəllimi olub. Həmin günlərdən söz açan Almaz xanım dedi: "Başqa fənlərlə yanaşı, Surxayın təsviri sənətə də böyük həvəsi var idi. Buna görə də bir-birindən maraqlı rəsmlər çəkərdi. Dərsin birində Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimizdən söz açdım. O illərdə tankımızın, topumuzun indikindən çox olmadığından danışdım. Bu məqamda Surxay dedi ki, müəllim, bu gün bizə tank yox, "tank ürəkli" əsgərlər lazımdır. Bu sözləri eşidəndə onu qucaqlayıb bağrıma basdım. Özü də elə Vətənə "tank ürəkli" zabit oldu. Döyüşlərdə böyük igidlik, qəhrəmanlıq göstərdi".

Gimnaziyanın müəllimi Leyli Abbasova isə Surxaya beş il ərəb dilini öyrədib. Leyli müəllim həmin günlərdən söz açaraq dedi: "Surxay dərslərinə ən yaxşı cavab verən şagirdlərdən biri idi. O, təkcə yaxşı oxumağı ilə deyil, həm də nizam-intizamı, tərbiyəsi ilə də başqalarından seçilərdi. Hərəkətlərinə də, dediyi sözlərə də məsuliyyətlə yanaşardı. Hiss olunurdu ki, o, böyüyəndə tanınmış bir insan olacaq. Surxay 44 günlük Vətən müharibəsində gələcək nəsillərə nümunə olacaq qəhrəmanlıq göstərdi. Biz onun kimi cəsur qəhrəmanları heç vaxt unutmayacağıq".

## Qəhrəman haqqında yazılmış kitablar




Almaz Hacıyeva Surxayın musiqi müəllimi olub. Gələcəyin qəhrəmanına musiqi tariximizdən dərs deyib, mənəvi dünyasını zənginləşdirib. "Surxay həm dərslərdə, həm də tədbirlərdə seçilən, sevilən şagirdlərdən biri idi. O, verilən şeirləri və mətnləri fərqli bir formada, ayrı bir vurğu ilə deməyə çalışırdı. Sanki bu kiçik mətnlərlə, şeir parçaları ilə düşmənə meydan oxuyurdu. Surxay vətənpərvər şagird idi", - deyə müəllim bildirdi.

Gimnaziyanın müəllimi Könül Süleymanova da bir zamanlar bu təhsil ocağında oxuyub. Qəhrəmanımız Surxay Noçuyevdən üç sinif aşağıda təhsil alıb. "Hər şeyi sanki indiki kimi xatırlayıram. Surxaydan üç sinif aşağıda oxusam da, tənəffüslər zamanı dəhlizlərdə tez-tez rastlaşardıq. Tədbirlərdə bir-birimizi görərdik. Onu həmişə yaxşı oxuyan şagird kimi başqalarına nümunə göstərirdilər. Döyüşlərdə şəhid olduğunu eşidəndə çox kədərləndik, çox təəssüfləndik. Surxayın gələcəyi hələ qarşıda idi. Ömrünün sabahkı illərində xidmətində daha da böyük uğurlar qazana bilərdi", - müəllim dedi.

Coğrafiya müəllimi Durna Tağıyeva Surxaya bu fənni sevə-sevə tədris edib. Durna xanım qəhrəmanı xoş hisslərlə xatırladı.

## Yeni doğulan körpənin adını Surxay Noçuyev qoydular




Səttar Bəhlulzadə adına Xarici Dillər Gimnaziyasının direktoru Xəyalə Veyisova söhbətimizə qoşularaq dedi ki, Surxay Noçuyev kimi qəhrəmanlarla həmişə fəxr edəcəyik. Gimnaziyada qəhrəmanlara həsr olunmuş guşə düzəltmişik. Surxayın da şəklini ora qoymuşuq. Pedaqoji kollektiv olaraq biz də çalışırıq ki, şagirdlərimiz vətənpərvərlik ruhunda böyüsünlər.

Tanınmış yazıçı-publisist Ayaz İmranoğlu Vətən Müharibəsi Qəhrəmanı Surxay Noçuyev haqqında "Son əmr" və "Komutan" adlı kitablar yazıb. Kitabların adı, tərtibatı elə ilk baxışdan oxucunun diqqətini çəkir. "Son əmr" kitabı publisist əsərdir. Müəllif bu kitabda demək olar ki, qəhrəmanın həyatını addım-addım "izləyib". Surxayın doğuluşundan həyatının son anına qədər ömür yolu bütün təfərrüatı ilə kitabın səhifələrində ardıcıllıqla işıqlandırılıb. Kitabın son səhifələrində mətnə uyğun olaraq verilmiş şəkillər oxucunun marağını daha da artırır.

Qəhrəmana həsr olunmuş ikinci kitab - "Komutan" adlanır. Real hadisələrə güzgü tutan əsər roman janrında yazılıb. Elə ilk cümlələrdən müəllifin dilinin çox sadə, anlaşıqlı, bulaq suyu kimi dupduru olduğu aydın duyulur. Müəllif əsərində Surxay Noçuyevin obrazını həyatda olduğu kimi yaratmağa çalışıb.

Söhbətimizin sonunda qəhrəmanın atasından şad bir xəbər də eşitdik. Əbdül Noçuyev dedi ki, bu yaxınlarda yeni ailə həyatı qurmuş kiçik oğlu Əfqanın oğul övladı dünyaya göz açıb. Əfqan körpəyə qardaşının adını qoyub: Surxay Noçuyev. Sanki Surxay Noçuyev yenidən dünyaya gəlib. Qoy düşmən qəhrəmanımızı öldürdüyünə görə sevinməsin. Çünki Surxay Noçuyev kimi igidlərimizin sayı çoxdur. Yeni-yeni qəhrəman oğullar doğulur. İnanırıq ki, dünyaya yenicə göz açmış balaca Surxay da əmisi kimi qəhrəman olacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***






# Bakının ilk qarı













**Qışın gəlişinə iki həftə qalmasına baxmayaraq, dünən Bakıda ilk qar yağdı. Əslində, bir neçə gün idi ki, sinoptiklər bütün ölkə ərazisində, o cümlədən paytaxtda qar yağacağı barədə xəbərdarlıq etmişdilər, o səbəbdən onu gözləyirdik.**

Proqnoz bu dəfə də düz çıxdı. Dünən parklar, meydanlar, xiyabanlar az da olsa, ağ örpəyə büründü. Ağaclardakı qar topaları, evlərin damlarındakı ağ mənzərə Bakının görkəminə təmizlik qatdı.

Uşaqların sevinci isə yerə-göyə sığmırdı. Kimi qartopu oynayır, kimi qardan müxtəlif fiqurlar düzəldir, kimi də sakitcə qarın yağmasına tamaşa edirdi. Hətta küçədə sürüşüb yıxılmasınlar deyə bir-birinin əlindən tutan, qoluna girən insanların da üzündə ilk qar sevinci vardı.

***Züleyxa ƏLİYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


## Bazar günü etüdü

# Göydən yerə incə-incə nur damcılar



*Səmanın hər tərəfinə səpələnmiş, göy üzünü "qucaqlayıb" bağrına basmış ağlı-qaralı buludlar sıxlaşaraq guruldayıb bir an içində aləmə səs salır, yeri-göyü silkələyir. Elə bu an ildırım bir neçə dəfə çaxıb göy üzünə, yer üzünə işıq saçır. Sonra da tez gözdən itib görünməz olur. Nə qədər arxasınca baxsaq da, onu nə yer üzündə, nə də göy üzündə görə bilirik. Sanki ildırım buludların gurultusundan qorxub qeybə çəkilir.*

*Nərildəyib, guruldayıb aləmə səs salan buludlar isə az sonra qaş-qabağını sallamağa başlayır. Buludların bu halına dözə bilməyən havanın gözü yavaş-yavaş dolur, bəbəkləri nəmlənir. Deyəsən, yenə də buludlar "ağlayacaq". Göy üzündən yer üzünə incə-incə nur damcılar ələnəcək. Həzin-həzin, narın-narın, aram-aram yağış yağacaq.*

*Həmişə belə olur. Yağış yağmazdan əvvəl buludlar bir-birinə dəyib bütün aləmə səs salır. Bir zərbə ilə yeri də, göyü də silkələyir, yağış yağacağını insanlara xəbər verir. İldırım da tələm-tələsik özünü çatdırıb əlində tutduğu iri çaxmaqdaşlarını bir-birinə vurub göy üzündən yer üzünə qığılcım səpələyir. Dünyanın qaranlıqlarına işıq ələyir, nur çiləyir. Buludlar guruldayandan, nərildəyəndən sonra səsini içinə çəkib bir az sakitləşir. Yavaş-yavaş havadan yağış qoxusu gəlir. Əvvəlcə iri damcıların səsi gəlir, nəfəsi duyulur. Sonra yer üzünə səpələnir...*

*Aram-aram, asta-asta yağan yağış sanki bir az özünü öyür. Hiss olunmadan torpağın "qapısını" döyür. Torpaq da yağışı sevə-sevə sinəsinə çəkir. Bu anlarda sanki rahatlıq tapır. Yağış yağmağa başlayandan az sonra ətrafa könlümüzə sığal-tumar çəkən torpağın xoş ətri yayılır. Torpaqdan qopan bərəkət qoxusu adamı sehirlədikcə sehirləyir.*

*Təbiətin göy üzünə çəkdiyi ən gözəl mənzərələrdən biri də yağışın yağmasıdır. Eyvanda dayanıb yağışın asta-asta yer üzünə səpələnməyinə, ələnməyinə tamaşa edirik. Gözlərimizi bu gözəl mənzərədən çəkmək istəmirik. Bu gözəl, əsrarəngiz səhnəni seyr etməkdən doymuruq. Yağışın narın-narın, aram-aram, şırıl-şırıl yağmasına baxdıqca ruhumuza sakitlik çökür. Bu anlarda sanki incə-incə nur damcılı yağış əsəbimizi, qəzəbimizi yavaş-yavaş yuyub aparır, ruhumuz dincəlir. Sinədolusu nəfəs alırıq, qəlbimiz açılır, ürəyimiz genişlənir. Özümüzdən asılı olmadan dodağımızdan bu sözlər süzülür: "Yağ ey, yağış, yağ, ləngimə! İncə, nur damcılarını yer üzündən əsirgəmə!"*

*Yağışın narın-narın yağmasına, incə-incə damcılarına şairlər duyğulu şeirlər yazıblar, bəstəkarlar gözəl-gözəl mahnılar qoşublar. Yazılan şeirlər, bəstələnən mahnılar yağışın özü kimi bənzərsizdir, sehirlidir. Söz adamları həvəslə, ürəkdən yazdıqları şeirlərində yağışın yağmasını çox gözəl vəsf ediblər. Yağışın yağmasını nəzmə çəkmək üçün ən dəyərli sözləri seçirlər. Bu sözləri, bu təsvirləri oxuyanda ürəyimizdən keçir ki, yağış heç vaxt dayanmasın, yağdıqca yağsın. Kim bilir, bəlkə də elə yağış bu şeirlərə, bu mahnılara görə yağır. Şairlər şeirlərində bəzən yağışa üz tutub arzularını da ifadə edirlər. Bəziləri yazır ki, yağma yağış, yarım gözləyir məni, bəziləri də "yağ ey, yağış, təbiətə can ver, torpağa qan ver" deyir.*

*Ağlı-qaralı buludların "göz yaşları" qurumaq bilmir. "Ağladıqca ağlayır", yağdıqca yağır. Yağış asta-asta, narın-narın, şırıl-şırıl yağdıqca yağır, dayanmır. Göy üzündən yer üzünə nur ələnir. Yağış yağanda təbiət də sevinir. Bunu görəndə insanın da ürəyi açılır, qəlbinə sevinc saçılır. Yağış çöhrəsinə dəyən kimi torpağın üzü gülür. Belə anlarda yağışı vəsf edən şairin dilində sözü də gülür, özü də gülür, yağışın gözəlliyinə tamaşa edən gözü də gülür.*

*Yağış yağır asta-asta, həzin-həzin, aram-aram. Taq, taq, taraq. Sanki yağış dünyaya səs salaraq demək istəyir ki, yer üzündə də, göy üzündə də mən varam. Ucsuz-bucaqsız səmadan yer üzünə incə-incə nur damcılar səpələnir, düşüncəmiz də, fikrimiz də təzələnir. Qələmimiz yeni mövzulara köklənir. Ürəyimizdə dolaşan arzularımız, istəklərimiz də yağışdan güc alaraq qönçələnir, incələnir, çiçəkləyir.*

*Asta-asta, həzin-həzin, aram-aram yağış yağır. Taq, taq, taraq. Göy üzündən yer üzünə incə-incə nur ələnir. Yağış yağır...*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Mənim sualım var

*Uzun illərdir eyni dövlət idarəsində çalışıram. 2023-cü ilin sentyabr ayında 14 yaşlı qızıma şəkərli diabetə görə II qrup əlillik təyin olunub. Bu yaxınlarda eşitdim ki, Azərbaycan qanunvericiliyinə əsasən, himayəsində 18 yaşınadək belə uşaq olan fiziki şəxslərə əməkhaqqı hesablanarkən vergi güzəşti tətbiq edilir. Bundan gec xəbər tutduğuma görə müvafiq sənədləri işlədiyim müəssisəyə indi - övladıma əlilliyin təyin olunmasından təxminən 1 il 3 ay keçdikdən sonra təqdim etməyə hazırlaşıram. Bilmək istəyirəm ki, əməkhaqqım hesablanarkən ötən dövr üçün istifadə etmədiyim vergi güzəşti nəzərə alınacaq, yoxsa bu güzəşt müvafiq sənədləri təqdim etdiyim gündən sonrakı dövrü əhatə edəcək?*

***S.Seyidova,***
***Gəncə şəhəri***

✓ Verdiyiniz sualla bağlı bildiririk ki, Vergi Məcəlləsinin 102.3-cü maddəsinə əsasən, daimi qulluq tələb edən 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə baxan və onunla birlikdə yaşayan valideynlərdən birinin (özlərinin istəyi ilə) iş yeri üzrə vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır. Misal: valideynin aylıq gəliri 800 manatdırsa, həmin məbləğdən 200 manat güzəştə görə, 200 manat da əməkhaqqı 2500 manatdan aşağı olduğu üçün (Vergi Məcəlləsinin 102.1.6-cı maddəsi) çıxıldıqdan sonra qalan 400 manatlıq hissə vergiyə cəlb olunacaqdır.

Sualın ikinci hissəsinə gəldikdə isə, qeyd olunmalıdır ki, Vergi Məcəlləsinin 102.8-ci maddəsinin tələbinə əsasən, vergi güzəştləri sizin əsas iş yeriniz üzrə tətbiq olunur və əgər siz vergi güzəştlərini əldə etməyə əsas verən statusunuzun olmasına baxmayaraq, güzəşt hüququnu təsdiq edən sənədləri əmək müqaviləniz hüquqi qüvvəyə mindikdən sonra təqdim etmisinizsə, bu zaman vergi güzəşti sizin əmək müqaviləniz qüvvəyə mindiyi tarixdən hesablanmalıdır. Daha dəqiq desək, sizin halda ötən dövr üçün istifadə etmədiyiniz güzəşt hüququnuz əvvəlki aylardan nəzərə alınmalıdır.

*Birinci övladıma babasının adı soyad olaraq verilib. İndi ikinci övladım dünyaya gəlib. Ona da eyni qayda ilə babasının adını soyad vermək istədik, amma qeydiyyat şöbəsi imtina etdi. Bu nə dərəcədə doğrudur? İndi övladlarım fərqli soyad daşımalıdır? Qanunla bu məsələ necə tənzimlənir?*

***Fateh Yusifli,***
***Bakı şəhəri***

✓ Azərbaycan Respublikası Ailə Məcəlləsinin 53-cü maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.05.2011-ci il tarixli 79 nömrəli Qərarı ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nın 4.1-ci bəndinə əsasən, uşağın soyadı, bir qayda olaraq, valideynlərin soyadı ilə müəyyən edilir. Müvafiq müddəaların məzmunundan göründüyü kimi, istisna hallarda Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsinin diskresion hüququ olaraq onun tərəfindən fərqli soyadın qeydiyyata alınması mümkündür. Yəni müraciətdə qeyd olunan məsələnin təmin edilib-edilməməsi hüququ qeydiyyat orqanına məxsusdur. Bununla yanaşı, valideynlər belə olan halda qeydiyyat orqanının imtina cavabından inzibati məhkəməyə şikayət verə bilər ki, məhkəmə İnzibati Prosessual Məcəllənin 74-cü maddəsini rəhbər tutmaqla inzibati orqanın üzərinə öhdəlik qoysun ki, uşağa babasının adı onun soyadı olaraq qeydiyyata alınsın. Əgər məhkəmə şikayəti təmin etməsə, çıxış yolu yuxarıda adıçəkilən Qaydaların 6.1-ci bəndinə əsasən, həmin şəxsin 18 yaşına çatdıqdan sonra sərbəst surətdə soyadın dəyişdirilməsi ilə bağlı qeydiyyat orqanına müraciət etməsidir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 10 dekabr 2024-cü il tarixli qərarı ilə "Bakı Sığorta" Açıq Səhmdar Cəmiyyətinə sığorta fəaliyyətinə verilmiş 04 sentyabr 2009-cu il tarixli, 000251 nömrəli lisenziya ləğv edilmişdir.

"Bakı Sığorta" ASC-nin mövcud maliyyə göstəriciləri cəmiyyətin öhdəliklərinin tam və vaxtında icra edilməsinə imkan verir. Cəmiyyətin ləğvetmə prosesi Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində nəzarətdə saxlanılacaqdır.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Məzahir Əliyev və Rüfət Əkbərov Gədəbəy rayonunun sabiq icra başçısı

**RAMİZ BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4233
Sifariş 2849

Qiyməti 60 qəpik